*AŞIQ   NABAT*

# *ƏLDƏ XINA, GÖZDƏ YAŞ*

*BAKI-2012*

**Toplayanı, tərtib edəni və ön sözün müəllifi:**
***Sədnik Paşa Pirsultanlı, filologiya elmləri doktoru, professor.***

***Redaktor:*** Məhərrəm Qasımlı,
filologiya elmləri doktoru, professor.

***Sədnik Paşa Pirsultanlı (Paşayev).***

*Əziz oxucular, "Aşıq Nabat" kitabında aşığın tərcümeyi-halı, şeirləri və "Nabat və Musa" dastanı yer almışdır. Nabat müasir qadın aşıqlarımız arasında xüsusi mövqeyə malikdir.İlk dəfədir ki, Nabatın şeirləri və dastanı bir küll halında çap olunur.*

**4702060202**
**------------------------------- qrifli nəşr**
**c Aşıq Nabat-2012**
**M-651(07) 2012**

## *Aşıq Nabatın həyatı, şeirləri və dastan yaradıcılığı*

XX əsrin qadın aşıqlarından Nabat həm peşəkar, həm də yaradıcı aşıq olmuşdur. O, müasirləri arasında sayılıb seçildiyi üçün, onu biz klassik qadın aşıqları sırasında görürük.

Aşıq Nabat (Nabat Paşa qızı Cavadova) 1914-cü ildə Şərur rayonunun Parçı kəndində yoxsul kəndli ailəsində anadan olmuşdur.

Nabat ata-anasını lap uşaqlıq çağlarında itirmişdir. Nabatın uca boyu, qızılgülə bənzər ağlı-qırmızılı yanağı, hələ üstəlik məlahətli səsi çoxlarının diqqətini özünə cəlb edirdi. Nabatı öz kəndlərində sevənlər çox idi. Lakin, Nabatın meyli onu sevən gənc bir oğlanda idi. Nabatı polis dəstəsinin başçısı həmin oğlan götürüb qaçdı. Dərələyəz ellərinə apardı. Bu oğlan o qədər yaraşıqlı, xoşxasiyyət idi ki, Nabatın öz taleyindən şikayət etməyə haqqı yox idi.

Lakin, bu xoşbəxtliyin ömrü az oldu. Polis rəisi olan gənc oğlanı qaçaqlar gecə hücum edib öldürdülər. Həmin hadisəni Nabat bir qoşmasında belə xatırlayır:

Bilirsənmi, ay Ələyəz dağları,
Gəncliyimi səndə qoyub gəlmişəm.
Əllərim xınalı, gözlərim yaşlı,
İlk eşqimi səndə qoyub gəlmişəm.

Aşıq Nabat doğma elindən, obasından, Əyricə dağından, doğma Parçı kəndindən ayrılmasının səbəblərini başqa bir qoşmasında poetik bir dillə belə mənalandırır.

İki gözüm, “Oğlan qala”, “Qız qala”,
Mən sizdən xəbərsiz sizdən ayrıldım.
Ay Əyricə dağım, a doğma Parçım,
Mən sizdən xəbərsiz sizdən ayrıldım.

Üç gözəlin timsalıdır Siyaqut,
Arpa çayı, biri Sara, birin tap?
Nuruyla bağlıdır qanlı hekayət,
Mən sizdən xəbərsiz sizdən ayrıldım.

Nabat, yazda gəldim, düşdüm qışa mən,
Qürbət eldə döndüm qərib quşa mən.
Qoymadılar gəzəm yarla qoşa mən,
Mən sizdən xəbərsiz sizdən ayrıldım.

Nabat sanki bu qoşması ilə nakam məhəbbətini əbədiləşdirir, ona bir söz abidəsi qoyur.

0, doğma elində qala bilmir çünki, qohum əqrabası onun müğənni olmasına, toylara getməsinə imkan vermir. Aşıq Nabat məcburiyyət qarşısında qalıb 1934-cü ildə müğənnilər və bəstəkarlar diyarı Qarabağa köçüb gəlir.. O, bir müddət görkəmli müğənnilərimizdən Xan Şuşinski, Seyid Şuşinski, Zülfü Adıgözəlov və tarzən Qurban Pirimovla bir yerdə müğənnilik edir.

Nabat Qarabağa ürəkdən vurulur və ömürlük bu torpağın sakini olur.

Lakin Nabat müğənnilik yolunu çox tez dəyişir, yavaş-yavaş saza meyl göstərir və aşıqlığı özünə peşə seçir. O, üç il Aşıq Ələsgərin qardaşı oğlu Aşıq Musaya şagird olur. Nabat, Aşıq Musadan 20 saz havası, "Alıxan və Pəri xanım", "Abbas və Gülgəz", "Lətif şah", "Aşıq Qərib", "Leyli və Məcnun" dastanlarını öyrənir.

Bundan sonra Nabat müstəqil aşıqlığa başlayır. Qarabağda ad-san qazanmış istedadlı sənətkar 1938-ci ildə aşıqların ikinci qurultayında iştirak etmək səlahiyyətinə malik olur. Nabat getdikcə ustad bir aşıq kimi tanınmağa başlayır.

Azərbaycanın ədəbiyyat və incəsənət xadimləri 1940-cı ilin may ayında xüsusi qatarla Moskvada keçiriləcək ongünlükdə iştirak etməyə gedirdilər. Həmin nümayəndələr arasında Aşıq Əsəd Rzayev, Aşıq Teymur Hüseynov və Aşıq Nabat Cavadova da var idi.

Aşıq Nabat o günü xatırlayaraq hələ o zamanlar səfərlə bağlı öz təəssüratlarını belə bölüşdürmüşdür:

"Şair Səməd Vurğun yanımıza gəldi, repertuarımızla maraqlandı. Sonra mənə üç bəndlik bir qoşma yazıb verdi və dedi: -Aşıq Nabat, bax, xoşuna gəlsə, bu "Danışaq" qoşmasını Moskvada, Kremlin səhnəsində oxuyarsan!.."

Biz aşağıda Səməd Vurğunun yazdığı "Danışaq" qoşmasını veririk:

Aşıq, bağrına bas sədəfli sazı,
Min cavablı bir sualdan danışaq,
Meydan quraq, söhbət açaq, saz tutaq
Gül yanaqda qoşa xaldan danışaq.

Qoy söz alım bir günahsız dodaqdan,
Düşmən baxıb həsəd çəksin uzaqdan.
Yar bəzənib çıxan zaman otaqdan,
Başındakı tirmə şaldan danışaq!

Vurğun deyər: bir dərd bilən yar olsun,
Zülfü bulud, ağ sinəsi qar olsun,
Yaxşı gündə, yaman gündə var olsun,
Qədirbilən əhli-haldan danışaq.

Nabat şair Səməd Vurğunun yazdığı "Danışaq" rədifli qoşmasını -"İrəvan çüxuru" saz havası üstündə oxuyur. Onun bu ifası Səməd Vurğuna da, başqa dinləyicilərə də xoş təsir bağışlayır.

Nabat Moskvaya ongünlüyə gedəndə Səməd Vurğun ona oxumaq üçün "Danışaq" qoşmasını təqdim etdiyi vaxtlarda Nabat gənc idi, 26 yaşına yenicə keçmişdi.

Aşıq Nabat Səməd Vurğunun sözlərindən, xalqın alqışlarından güc alaraq özündə yeni şeirlər yazmaq həvəsinin baş verdiyini görür, birdən-birə şeir yazmağa marağı artır. Nabat deyir:

-Səməd Vurğunun "Danışaq" qoşmasını tək qoymaq istəmirəm. Ona bənzər bir "Danışaq" qoşmasını da mən yazacam. Nabat öz təzə qoşmasını belə dilə gətirir:

Əziz şair, sən qələmlə, mən sazla,
Bu şad gündən, xoş bahardan danışaq!
Min gül açıb Azərbaycan torpağı,
Tükənməyən arzulardan danışaq.

Gözəllikdə qənirsizdi bu diyar,
Sərvəti var, neməti var, varı var.
Yurdumuzda əbədidi xoş bahar,
Aradakı düz ilqardan danışaq.

Gəz dağları, Muğana gəl, Milə gəl!
Telli sazım bəmdə durma, zilə gəl,
Nabat deyər: könül sən də dilə gəl,
Bu xoş gündə dostdan, yardan danışaq.

Elə bil Aşıq Nabata yeni ilham gəlmişdir. O, Vətənin seyrinə çıxır və onun gözəllikləri haqqında yeni-yeni şeirlər düzüb qoşur.

Aşıq Nabat yeni yaratdığı "Var" adlı qoşmasında Odlar diyarına, onun coşğun çaylarına, dağlarına, humanist oğul və qızlarına olan məhəbbətini şeir dili ilə belə tərənnüm edir:

Gəlin, seyrə çıxaq Kür qırağına,
Mənim o yerlərə ziyarətim var.
O Vaqif dolanıb gəzən torpağa,
Əzəldən bağlıyam, məhəbbətim var.

Mənim çox sözüm var Vətənə bağlı,
Elin aşığıyam aranlı, dağlı,
Özüm şən həyatlı bağçalı, bağlı,
Vətən torpağına məhəbbətim var.

Nabat, köklə sazı, zilə çək sazı,
Başla ağ günlərdən söhbəti, sözü.
Dağlartək gül açır ömürün yazı,
Mənim xoş əməlim, xoş niyyətim var.

Aşıq Nabatın xalq şairi Səməd Vurğunla görüşü, onun şeirini oxuması, "Danışaq" qoşmasına cavab yazması ictimai aləmdə onun tanınmasına və şöhrət qazanmasına möhkəm zəmin oldu.

Bir dəfə qəribə bir söhbətin şahidi oldum. Əslən gəncəli olan Müzəffər adlı gənc bir şair Mingəçevir şəhər qəzetində işləyirdi. O mənə söhbət etdi ki, ayda bir-iki dəfə Bakıya Yazıçılar İttifaqına şeir oxumağa gedirəm. Yazdığım qoşmaları Yevlağa Aşıq Nabata aparıb oxuyurdum ki, bəlkə mənim şeirlərimdən birini seçib oxuya. Mən bir dəfə Bakıya Yazıçılar İttifaqına gedəndə hörmətli şairimiz Səməd Vurğun Aşıq Nabatın onun "Danışaq" qoşmasını məlahətli bir səslə oxuduğunu, Nabatın onun şerinə maraqlı bir cavab yazdığını söylədi. Mən söz alıb hörmətli şairimizə dedim:

-Nabat, mənə dedi ki, Səməd Vurğunun "Danışaq" qoşmasını tək qoymadım. "Danışaq" rədifli bir qoşma da mən yazdım.

Amma onunla kifayətlənməyib, ikinci bir “Danışaq” qoşmasını düzüb qoşdum. Mənə belə gəlir ki, ikinci “Danışaq” qoşmam daha maraqlıdır.

Mən bunu Səməd Vurğuna xəbər verəndə gülmüsündü və dedi:

-Nabatın yazdığı təzə qoşmanın üzünü köçür, mənə gətir. Nabatın ikinci “Danışaq” qoşması doğrudan da qiymətli bir sənət incisidir. Qoşmanı burada verməyi daha münasib bilərək, qeyd edirik:

Gözəl, şairlərin tanrı payıdır,
Gözəllikdən, cah-cəlaldan danışaq.
Gəncədəmi qaldı o ala gözlər,
Vurğun duyan, xoş xəyaldan danışaq.

Gözəl bir qız ola, əldə saz ola,
Dağda çiçək, könüllərdə yaz ola,
Aralıqda bir məcazi söz ola,
Dodaq qaymaq, ləbi baldan danışaq.

Dağda kəklik, Kür üstündə ceyranam,
Çoxu deyər, mən Nabata heyranam.
Mələk xislət, Ay camallı insanam,
Bədirlənmiş o hilaldan danışaq.

Səməd Vurğun dedi:

-Müzəffər, Aşıq Nabatın mənim şeirimi oxuduğu dövrdən iyirmi ildən çox bir vaxt keçir. Bu müddətdə Nabat çox inkişaf edib, püxtələşmiş, kamil bir aşıq ol-

muşdur. Şeiri diqqətlə oxumusanmı?. Orada qəribə eyhamlar var. “Gəncədəmi qaldı o ala gözlər” və yaxud, möhürbənddəki son beytə diqqət et:

Mələk xislət, Ay camallı insanam,
Bədirlənmiş o hilaldan danışaq.

O zamanlar Aşıq Nabat çox gənc idi. Belə poetik ifadələr işlədə bilməzdi.

Doğrudan da, Nabat ömrünün orta çağlarında dərin zəkalı, eldə-obada məşhur bir sənətkara çevrilmişdir.

Nabatın poeziyasını, “Aşıq Nabat və Musa” dastanını, bütövlükdə, Aşıq Nabatın ədəbi irsiylə tanış olduqdan sonra belə qərara gəlirsən ki, onun yaradıcılığı xüsusi tədqiqata möhtacdır.

Qədirbilən Aşıq Nabat, ömrü boyu Səməd Vurğunun xeyirxahlığını, humanistliyini, insana olan böyük qayğısını unutmamışdır. Səməd Vurğuna çox sayda qoşma və gəraylılar həsr etmişdir. Biz Nabatın Səməd Vurğuna olan rəğbətini, onun qoşmalarından birini dilə gətirməklə fikrimizi tam ifadə edə bilərik. Səməd Vurğunun dünyasını dəyişdikdən sonra yazdığı “Cahanda qaldı” qoşması onun ürək qanı ilə yazılmışdır. Demək olar ki,Aşıq Nabat bu qoşmada Səməd Vurğunun istedadını, dünyadakı şöhrətini, şeirlərindəki Xəzər dənizi boyda tutumunu tam verə bilmişdir.Aşıq Nabat böyük şairimiz Səməd Vurğunu belə təsəvvürə gətirir. Onun özünü və şeirlərini iftixarla aşağıdakı şəkildə təcəssüm etdirir:

Vurğun getdi, bir də geri qayıtmaz,
Sözləri yadigar cahanda qaldı.
Çöllərində turac, bir də qırqovul,
Alagöz ceyranlar Muğanda qaldı.

Nabat, Vurğundaydı dünyanın gözü,
O yana, bu yana gəl çəkmə bizi,
Xəzərə bərabər ləl-mərcan sözü,
Dənizlərdən böyük ümmanda qaldı.

Böyük şairimiz Səməd Vurğunun dili ilə desək, ictimai həyatda özünə mövqe qazanan, sənətinin inkişafı uğrunda mübarizə aparan, öz istedadına güvənən Nabat çox irəli getmişdir.

Bizim folklor arxivimizdə saxlanılan Aşıq Nabatın onlarla qoşma və gəraylısı, iyirmidən artıq özünəməxsus bayatısı, eləcə də Aşıq Məsimin onun haqqında yazdığı qoşmanın təhlili Aşıq Cəvahirlə, Cavan Teymurla bir yazıya sığışa bilməz. Bizim dilə gətirdiyimiz nümunələr,örnəklər olsa-olsa Aşıq Nabat yaradıcılığı ilə tanış olmağa azacıq imkan yarada bilər. Bu mənada Nabatın aşıqlığı ilə yanaşı, şairlik qüdrətini göstərmək üçün bir neçə qoşmasından nümunə vermək yerinə düşər. Mən deyərdim ki, “Bənövşəsi” rədifli qoşma Aşıq Nabat poeziyasında möcüzədir, əvəzsiz bir sənət incisidir.

Diri dağlarının gülü, çiçəyi,
Gəlib Kür üstünə mor bənövşəsi.
Deyirlər siftəsin Qurbani dərib,
Əmrahın bağında var bənövşəsi.

Aşıq Nabat klassik aşıq poeziyasını, dastanları öyrənir və oradakı mənaları daha dərindən düşünməyə çalışır. Şeirlərdəki mənaları arayır, axtarır və öz qənaətlərini bədii şəkildə dilə gətirir.

Məlumdur ki, XVI əsrin böyük sənətkarı olan Dirili Qurbani yaz-yay aylarında Diri dağlarına gəlir, hamıdan əvvəl yaz bənövşəsini dərir və bənövşə haqqında elə bir şeir yaradır ki, Qurbani dedikdə bənövşə, bənövşə dedikdə Qurbani yada düşür. Qurbaninin bənövşəsinə Ərzurumlu Əmrah elə bir nəzirə yazmışdır ki, iki sənətkarın şeir bəndləri bir-birinə qarışanda onları seçmək, fərqləndirmək çətin olur.

"Gülüstana gəl" qoşmasının özü tarixdən xəbər verir. Yurdun toponimlərini misralarında nəqş etdirir. Şeirdən bir nümunə:

Murovun döşündən Qazandurmaza,
O yerlərdən enib, Gülüstana gəl!
Uğurla keçəsən İncə çayını,
O Küsmüş körpüdən Gülüstana gəl.

Gədəbəyin məşhur Şahdağını, Göyyurd yaylağını dilə gətirən Nabat yurdumuzun gözəlliklərini təsvir və tərənnüm etməkdən doymur. Bir nümunə:

Haki Şahdağının seyrinə vardım,
Əlvan güllərini dərdim, nə dərdim.
Səfalı Göyyurdu gəzdim, dolandım,
Cənnəti də gördüm, daha nə dərdim.

Doğrudan da, Nabat simaca, boy-buxun etibarı ilə, hüsnünə görə qənirsiz gözəl idi. Başqalarının tərifləməsi bir yana, Aşıq Nabat öz gözəlliyini dönə-dönə iftixarla təsvir və tərənnüm etmişdir. Təkcə bu şeirlərində özünün gözəlliyindən deyil, sənətinin də ona yaraşdığını, avazının gözəl, səsinin zil olduğunu dönə-dönə qeyd edir. “Yaraşır” qoşması Nabatın özü və sənəti haqqında tam təsəvvür yaratdığı üçün, həmin üçbəndlik qoşmadan bir bəndini burada nümunə veririk.

Mənim gözəlliyim tanrı payıdır,
Atlas tapılmasa, bez də yaraşır.
Tarzəni çağır, ay müğənni qız,
Mənə sədəfsiz saz da yaraşır.

Aşıq Nabat öz gözəlliyi ilə, sənəti ilə, məlahətli səsi ilə öyündüyü kimi, başqa sənətkarlar da onun cazibədar görkəmini, ecazkar poeziyasını böyük vurğunluqla tərif etmişlər. Şəmkirli Aşıq Məsim ona neçə-neçə şeir ithaf etmişdir. Aşıq Məsimin şeirlərindən bir nümunə:

Saz üstündə o incilər düzəndi,
Cavanşiri, Talıstanı gəzəndi.
Onu görüb çiçəklər də bəzəndi,
Bir dünyadı gözəlliyi Nabatın.

Çıxa qənşərinə bir bahar çağı,
Bir dünyadı gözəlliyi Nabatın.
Qızılgül yanağı, ağdı buxağı.
Bir dünyadı gözəlliyi Nabatın.

Məsim çox axtarıb, söz tapsın ona,
Bürünər çarğata, al-yaşıl  dona.
Göllərdə çalxanan sonadı sona,
Bir dünyadı gözəlliyi Nabatın.

Nabat öz gözəlliyindən bəhs edərkən təkcə özünün xarici görkəmindən  deyil, zəngin mənəvi dünyasından, sənətinin qüdrətindən fəxrlə danışır.

Onun gəraylıları daha çox təbiət gözəlliklərinə həsr olunmuşdur. Bunlardan biri, Gədəbəyə-Qızıltorpağa həsr olunmuş gəraylısı daha çox diqqəti cəlb edir. O "Dağlar" şeirində deyir:

Arı çiçəklərdən alıb,
Dərdə dərman, balın dağlar.
Qüdrətdən gözəl çəkilib,
Üzündəki xalın dağlar.

Biz yazıda Nabatın şeirlərini misal gətirərək onu daha çox bütöv şəkildə verməyi məqsədəuyğun hesab edirik. Ondan ötrü ki, Nabatın şeirləri mətbuatda ilk dəfədir ki, geniş şəkildə işıq üzü görür.

Nabatın yaradıcılığında Aşıq Bəstidə olduğu kimi, elə şeir nümunələrinə rast gəlirik ki, öz tipinə görə hansı şeir növünə daxil olduğunu çətin müəyyənləşdirmək olur. Lakin istər Bəstinin, istərsə də Nabatın qeyri-adi görünən bu səpkili şeirləri deyim tərzinə görə çox oynaq və ürəyə yatımlı olur. Bu səpkili şeirlərdən bir nümunə:

Bilmirəm nəyə bənzədim,
Qəşəngsən, qəşəngsən, gözəl.
Oxşadıram, seçənmirəm,
Sən hansı çiçəksən, gözəl.
Yanaqların dağ laləsi,
Qıvrım saçlar qərənfildir.
Ceyran müşkün ondan alıb,
Gözlərin axar bulaq,
Dörd bir yanı dağ nanəsi,
Daşları boyun bağı,
Hər birin bir qızdan alıb.
Bulaqlar öz zümzüməsin,
Mən deyirəm sazdan alıb.
İnciyər Şehdərənlər,
Deyər ki, Moy çiçəyim,
Ətrini bizdən alıb.
Boynu bükük bənövşələr,
Ətrini yazdan alıb.

Bu şeir parçasını nə müxəmməsin dağınıq forması, nə də ozan söylərinin bənzəri hesab etmək olmaz. Bizə görə, Nabatın bu səpkili şeirləri Azərbaycan folklorunda mövcud olan, uşaq folkloru kimi tanınan xalq düzgülərindən başqa bir şey deyildir. Aşıq Nabat uşaqlıqdan yaddaşında saxladığı xalq düzgülərinə bənzər bu cür maraqlı şeir düzüb qoşmuşdur.

"Könül" adlı qoşması onun əhval-ruhiyyəsinin tez-tez dəyişməsini, Nabatın psixologiyasına təsir etməsini dolğun şəkildə dilə gətirir. Məncə, qoşmanın bir bəndini verməklə kifayətlənmək olar.

Gahdan seyrə çıxıb dağlar başına,
Şərbət sularından içirsən, könül.
Gahdan da cumursan qəm dəryasına,
Bu şirin dünyamdan keçirsən, könül.

Aşıq Nabatın həyat və cəmiyyət haqqında, bütövlükdə dünya haqqında fəlsəfi düşüncələri, məlumatları, dərrakası və qavramı onun deyişmələrində özünü daha çox biruzə verir. Aşıq Cavan Teymurla, Gədəbəyli Aşıq Cəvahirlə deyişmələrindən aydın olur ki, Aşıq Nabat eli-elatı, toy məclislərini keçirdikcə, sənətə bələd olduqca nə qədər irəliyə doğru gedir, həyat hadisələrini öyrənməyə can atır və biliyini durmadan artırır. O, təkcə Daşkəsənli Cavan Teymurla, Gədəbəyli Aşıq Cəvahirlə deyişməmişdir. O, çox sənətkarlarla qabaq-qabağa gəlmiş və onlara özünün ağıl və kamalı ilə sərrast cavablar vermişdir. Biz burada başqa şeirləri kimi onun iki de-

yişməsindən parçalar veririk. Onun birinci deyişməsi Cavan Teymurla olan deyişməsidir. O, Cavan Teymurla Xoşbulaq yaylağında deyişmişdir.

Nabat: Eşit sözlərimi, ay Cavan Teymur,
Necə keçdi rüzgarı Qəribin.
Yeddi ilin ayrılığı çətindi,
Bir yaradan, səbəbkarı Qəribin.

Teymur: Şahsənəm Tiflisdə, Qəribsə Şamda,
O qürbət ellərdə, qərib axşamda.
Dayanmaz, yox olar, əriyər şam da,
Dünya boyda intizarı Qəribin.

Aşıq Nabatın Cəvahirlə deyişməsi (ikinci deyişmə) bundan da maraqlıdır. İkinci deyişmənin də oxucular üçün maraqlı olacağını nəzərə alaraq o deyişmədən də nümunələr veririk. Aşıq Nabatla Cəvahirin deyişməsi Gəncə şəhərində olmuşdur. Deyişmə aşağıdakı şəkildədir:

Nabat: Gecə-gündüz dağlarını öyürsən,
Nuh-çıxandı, Naxçıvandı dağlarım.
Nuhun gəmisini tutub saxladı,
Yerdi, göydü, asimandı dağlarım.

Cəvahir: Gədəbəyə-Qızıltorpaq deyərlər,
Dünya boyda bir cahandı dağlarım.

Qalakənd, Qızqala, Şəmkir boyunca,
Gəmi üzüb xoşnişandı dağlarım.

Aşıq Nabatın özünəməxsus bayatıları xüsusi tədqiqata möhtacdır. Nabat heç bir zaman bayatı yaratmağı qarşısına məqsəd qoymamışdır. Onun bütün bayatıları başına gələn hadisələrlə, macəralarla bağlı şəkildə bədahətən birdən-birə yaranmışdır. Məsələn, Nabatı polis oğlan götürüb qaçan zaman onun səhəngi, parçı kənd bulağının üstündə qalır. O, öz bayatısında, doğma kəndi Parçının, səhənginin, su içilən parçının adlarını ayrı-ayrı misralarında düzümləndirir:

Nabat deyər: Parçıdı,
Doğduğum kənd Parçıdı.
Məndən əmanət qalan,
Bulaq, səhəng, parçıdı.

Nabatın doğma kəndi "Qız qala" nın, "Oğlan qala"nın yanındadır. O, yurdundan ayrılarkən ilk növbədə öz doğma qalalarını "Oğlan qala", "Qız qala" nı xatırlayır.

"Oğlan qala", "Qız qala",
Ay ürəyi buz qala.
Nabat yada düşəndə,
Bircə məktub yaz qala.

Onu götürüb qaçan oğlan Dərələyəzdə qaçaqlar tərəfindən öldürüldükdə Nabat bədahətən aşağıdakı bayatını dilə gətirir:

Əzizinəm, qız qala,
“Oğlan qala”, “Qız qala”.
Nabat, insafdan deyil,
Oğlan ölə, qız qala.

Həmin bayatıdan sonra Arpaçayla bağlı hadisələri bir-bir gözü önünə gətirir, onlarla bağlı bayatılar düzüb qoşur.

Əzizinəm doymaram,
Səni gözdən qoymaram.
Dərya, dəniz bir yana,
Arpaçaydan doymaram.

Bir əfsanəyə görə, Saranı sel heç də Milə yaxın Muğandan deyil, onu Naxçıvandan Muğan-Mehrabın yanından Arpa çaydan sel aparmışdır. Arpa çayı Siyaqut kəndinin yanından keçir və Arpaçay gölünü əmələ gətirir. “Oğlan qala”, “Qız qala” da bu çayın ətrafındadır. Əfsanəyə görə, Sara “Qız qala”sında, onun sevgilisi Nuru isə “Oğlan qala”da yaşayır. Bu əfsanəni xəyalına gətirərək Aşıq Nabat aşağıdakı bayatını söyləyir.

Əzizinəm, Saram var,
Siyaqutum, Saram var.

Nurum “Oğlan qala” da,
“Qız qala”da Saram var.

Nabat öz ulusunun, elinin dağını, çayını, bir sözlə, toponimlərini bayatılarında əbədiləşdirir və onları bir-bir yadına salır, özünün həsrətini, intizarını, qəmli duy-ğularını bayatı inciləri vasitəsilə ifadə edir. Aşağıdakı bayatı da o qəbildəndir.

Arpaçay sular başı,
Qızıldı torpaq-daşı,
Qurumaz bir çay olub,
Hey axır gözüm yaşı.

Bizə bəlli olan bayatıları öz əhval-ruhiyyəsinə uyğun olaraq elə deyirik ki, bizdə təzə bir ovqat yaradır. Nabat öz elini-obasını görmək üçün Vətən sularında axmaq, dağlar boy versə, onlara doyunca baxmaq istəyir.

Zirvənə çıxım, dağlar,
Elimə baxım, dağlar.
Nə ola boy verəsən,
Suyunda axım, dağlar.

Nabat bu bayatıları yaradarkən təkcə, öz taleyini dü-şünmür, özündən əvvəlki qadınların, qızların çəkdikləri əzabları, məhəbbət yolunda cəfalarını bir-bir yada salır, duyğulanır və bunların təsiri ilə yeni bayatılar yaradır.

Məsələn: O,bunları düşünərkən Sarı Aşığın "Yaxşı" sını xatırlayır və onunla əlaqədar gözəl bir bayatı yaradır.

Əzizinəm, yaxşı dağlar,
Yaxşıdan yaxşı dağlar.
Dərdimi başdan desəm,
Dözməz Yaxşı da ağlar.

Folklor arxivində qovluqlar arasında üstünə Aşıq Nabat yazılmış bir bağlamaya rast gəldim. Açıb baxarkən orada çoxsaylı qoşma və gəraylısını, iyirmidən çox bayatısını gördüm. Gözlərimə inanmadım. Bunların arasında gözüm çap olunmuş bir kitaba sataşdı. Kitabın üstündə yazılmışdır-"Aşıq Nabat və Musa" dastanı. Kitabı açıb oxuyarkən dastanın 1993-cü ildə Yevlax rayon Xalq Maarif şöbəsinin metod kabinəsində çap olunduğunu gördüm. Kitaba metodist Xaləddin Niftəliyev səhifə yarım həcmində bir müqəddimə də yazmışdır. Müqəddimdə yazılmışdır: "Dastan qəhrəmanlarından biri olan Qaraməmmədli kənd orta məktəbinin dil-ədəbiyyat müəllimi Musa Allahverdiyev şeir, sənət həvəskarıdır. Otuz ildən artıqdır ki, yaşadığı regionda şifahi xalq ədəbiyyatı nümunələrini toplamaqla məşğuldur.

Musa müəllim iyirmi ildən artıq bir müddətdə məşhur qadın aşığımız Nabatla məktub vasitəsilə şeirləşmiş, üz-üzə qoşmalar söyləmişdir"[1].

---

[1] "Aşıq Nabat və Musa" dastanı, Yevlax, 1993, müqəddimənin müəllifi Xaləddin Niftəliyev.

Bir gün Nabat Yevlağın Qaraməmmədli kəndindən olan Musa Həbib oğlu ilə tanış oldu. Musa müəllim Nabatdan gənc idi. O, utana-utana Nabata yaxınlaşıb dedi:

-İstəyirəm, siz mənim qoşma və gəraylılarımdan məclisdə oxuyasınız.

Nabat dedi:

-Gözəl olar, evimə gəl, şeirini də gətir.

Bir gün Musa Nabatgilə gəldi, yavaş-yavaş darvaza qapısını döydü. Nabat qapını açıq qoymuşdu. Musa gözünə inanmadı. Nabat çarpayını həyətdəki gilas ağacının altına qoyub yatmışdı.

Musa nə vaxt gəlirdisə, Nabatın gilas ağacının altında yatdığının şahidi olurdu. Hər dəfə Musanın heyrətə gəldiyini Nabat da duyur.

Nabat dedi:

-Musa, deyəsən, düşünürsən ki, niyə Nabat bayırda yatır, qızı isə aynəbənddə. Mən burada heç kəsin yolunu gözləmirəm. Bunun başqa sirri var. Sən sənət adamısan. Şeirin, sazın nə olduğunu duyursan. Odur ki, bu sirri sənə deyəcəyəm. Bu sirr, sazın-sözün sehri ilə bağlıdır. Hamı eyni sazı, eyni cür çalmır. Hər kəsin öz duyumu, öz duyğusu var. Mənim sazımdakı sehrli səslər hər səhər-axşam bu gilas ağacında ötən bir bülbülün səsidir. Heç vaxt bülbülləri aşkarda oxuyan görməmişəm. Sən bülbüllərdəki abıra-həyaya, incəliyə, zərifliyə bax. Onlar oxuyan zaman yarpaqlar arasında gizlənib oxuyurlar. Onların mahnıları təkrarolunmazdır. Gah qəmli, gah da sevincli xoş mahnılar oxuyurlar. Mən sazımı onların səsi üstə kökləyirəm. Onlar qəmli oxuyanda elə bil kimsə

yerini itirib. "Baş Sarıtel" üstə oxuya-oxuya onu axtarır, sevinclə cəh-cəh vurub oxuyanda elə bil bülbüllər "Orta Sarıtel" üstə çalıb oxuyurlar. Vaxtilə Novruz da, Xan Tahir də bülbülləri dinləyəndən sonra "Bülbül" rədifli şeirlərini düzüb-qoşublar.

Musanı heyrət bürüdü, özünü ələ ala bilmədi.

-Nabat, gəl, biz də "Bülbül" rədifli şeirlər yazaq.

Araya sükut çökdü.

Nabat dillənmədi:

Hər iki sənətkarın "Bülbül" rədifli gəraylıları, bax, beləcə yarandı.

***Aşıq Nabat:***

Xan Tahirdən yadigarsan,
Sən özün də xan, ay bülbül.
Gecə-gündüz qəm yoldaşım,
Çox dərdlisən, can, ay bülbül.

***Musa:***

Oxu, gülsün yar könülü,
Gəl eyləmə ar, ay bülbül.
Yoxsa sənin də mənimtək,
Pünhan dərdin var, ay bülbül.

"A Musa, axı demişdim, yolun üstünə, altına çıxmaq olmasın. Sözdə sərhəd olsa yaxşı deyilmi?"

*Aşıq Nabat:*

Yada düşdü, yaxın, uzaq,
Sən fələyin işinə bax,
Ürəyimdən keçdi bir ox,
Bağrım oldu qan, ay bülbül.

Musa dedi:

-A Nabat, olmuya sözüm sənə toxundu. A zalım qızı, dastanlar oxumusan, neçə-neçə nakam aşiqin taleyinə, söz-söhbətinə balədsən. Hansı aşiq-məşuq olub ki, dərdini bülbülə, gülə, dağa-daşa deməmiş olsun.

***Musa:***

Aşıq olan bir yol seçər,
Eşqin bulağından içər.
Ağlı olan qalmaz naçar,
Eyləməz ah-zar, ay bülbül.

Heç özü hiss etmədən Nabatın qəlbinə bir qəm-qüssə çökdü. Qəmli bir hava üstündə köklənmiş sazı sinəsinə basıb sözün möhürbəndini belə tamamladı:

Nabat deyər: göyən bülbül,
Qəmli nəğmə deyən bülbül.
Sən bülbülsən, mən də bir gül,
Eşq oduna yan, ay bülbül.

Nabat dərdini sözlə də dedi:

-Musa, mən könlümü gecə-gündüz başım üstündə oxuyan bülbülə vermişəm.

Bu söz də Musanı yerindən oynatdı, elə bil canına qeybdən bir qızdırma gəldi, öz-özünə havalandı:

Musa deyər: ağ eylədin,
Təpə dərdim dağ eylədin,
Bir gilası bağ eylədin,
Gül yanında xar,ay bülbül.

Musa ilə Nabat bir-birindən çox könülsüz ayrıldılar. Musa bir daha Nabatın görüşünə qayıtmadı. Nabat öz-özünü məzəmmət etdi:

-Ay diliqafil, deyəsən, yox yerdən Musanın könlünə dəydin.

Fikirləşdi ki, gəl, Musaya bir məktub yaz.

-Onu “Bülbül” rədifli şeirlə küsdürmüşəm “Bülbül” şeiri ilə də könlünü alacağam.

Musa belə qərara gəldi ki, Nabatın evinə gedəsi deyiləm. Baharın bu laləzar çağında onu Kür üstünə çağıracağam. Oydu ki, Musa “Kürün üstünə gəl” qoşmasını yazdı, bir zərfə qoyub Nabata göndərdi.

Bülbüllü bağçana gələn deyiləm,
Gözləri piyalə, Kür üstünə gəl.
Çəkir həsrətini bənövşə, nərgiz,
Yanaqları lalə, Kür üstünə gəl.

Yar yarıynan gəzər, yar olar burda.
Loğmansız sağalar, yaralar burda.
Hicranın ürəyim yaralar burda.
Düşmə min xəyala, Kür üstünə gəl.

Sən kimdən küssən də Musadan küsmə,
Bir yerdə qərar tut, küləktək əsmə,
Qəlbimin bağını, bəndini kəsmə,
Görüşə, vüsala, Kür üstünə gəl.

Aşıq Nabat saz-söz vurğunu olan qızlardan Rəfiqəni, Səidəni, Rənanı, Şəfiqəni götürüb Kür üstünə gəldi. Bahar Kürün sahillərinə min naxış vurmuşdu, gəl görəsən. Kol dibindən boylanan bənövşələr, xumar gözlü zambaqlar, bir tərəfdən də gümüş rəngli ağ qovaqlar. Bunların hamısından çox ağac başında yuva bağlayan, qoşa dayanıb ətrafı seyr edən bir cüt leylək diqqəti cəlb edirdi. Nabat dedi:

-Qızlar, bu yerlərə Ərəş mahalı deyərlər. Bu torpağın Abdullah kimi şairi, Cahan kimi sevib-sevilən istedadlı qızı olub. Onlar bu yerlərdə bir-birlərinə çox nəğmələr qoşublar.

İstər Musa, istərsə də Nabat adlarını dilə gətirdikləri Abdullah və Cahan adları, "Abdullah və Cahan" dastanından götürülmüşdür. Onların bu yerlərdə, yəni Ərəş mahalında bir-birini sevdiklərinə işarədir.

Nabat əlini sazına qoyub dedi:

-Qızlar, bu saz çox nakam aşiqlərin dərdinə şərik olub. Sazı sızıldadan da, sevdirən də odur. Buraya Musa

adlı istedadlı bir gənc gələcək. Ona xüsusi diqqət yetirin, birincisi, o, müəllimdir, lakin saz-söz sahibidir. Mən onun səmimiyyətinə, şeirinə, sənətinə bələdəm. Siz də saz-söz vurğunu, istedad vurğunusuz. Hansınız Musanın xoşuna gəlsə, onunla deyişməkdən çəkinməyin.

Musa əvvəlcə Nabatla, sonra qızlarla görüşdü. Lakin bu dəfə Musa da Nabat kimi Kürün üstünə sazla gəlmişdi. Hər ikisi sazları bir-birinin üstünə köklədilər. Musa dedi:

-Bu dəfə qabağa mən düşəcəm.

Nabat dedi:

-Olsun.

***Musa:***

Kür üstünün boşdur yanı,
Hanı Abdullahım, hanı?
Nə özü var, nə Cahanı,
Ağlar Kürüm, ağlamazmı?

Nabat dedi:

-Ayə Musa, Kür üstündə, bu gün Abdullah yoxdur, Cahan yoxdur, sən varsan, su sonası kimi qızlarımız var. Buna münasib aldı görək Nabat nə dedi:

***Nabat:***

Kür üstünün sonası var,
Əllərinin xınası var,
Ağ yaylığı, cunası var,
Kürümün gülən günüdür.

***Musa:***

Durnam burdan keçdi qəmli,
Buludların gözü nəmli,
Bir gün görmədim həmdəmli,
Ağlar Kürüm, ağlamazmı?

***Nabat:***

Sağ-solumda üç şahzadə,
Heç birin verməərəm yada,
Sev birini yet murada,
Kürümün gülən günüdür.

Musa Nabatın eyhamını başa düşüb, aldı görək nə dedi:

İşarə eylədin qandım,
Musayam, yolumdan döndüm.
Sonalar gölünə endim,
Ağlar Kürüm, ağlamazmı?

Nabat bildirdi ki, Şəfiqəgilin ailəsi hər il yaz, yay aylarında Kəlbəcərin Ceyran bulağına, Sarıyer yaylaqlarına çıxırlar. Nabat dedi:

-Ay Musa,  bir gəraylı da oxuyum, gedək, qızları da evdə gözləyirlər. Aldı görək Aşıq Nabat nə dedi:

Aşıq Musa, götür sazı,
Bu cəh-cəlaldan de, danış.
Gözəlləri tərif eylə,
Qaşı hilaldan de, danış.

Ceyran bulaq bir tamaşa,
Hər yan bürünür qumaşa,
Gözəlləri qoşa-qoşa,
Bu xoş vüsaldan de, danış.

Ey Nabata ilham verən,
Bahardı şux naxış vuran,
Sevincini selləndirən,
Min bir güldən de, danış.

Dostlar xoş məramla ayrıldılar.

Aradan az keçmişdi. Musa üz tutdu, Dəlidağın qənşərindəki, Taxta yaylağına. Bir az "Ceyran bulağı" ndan aralı seyrək-seyrək alaçıqlar görünürdü. Amma hər gün Qarabağdan, aran elindən köç gəlir, yeni alaçıqlar görünürdü. Musa axşamlar İstisu kurortunda qalır, səhərlər Taxta yaylağına çıxırdı. Kimdən soruşurdusa, Şəfiqəgilin köçündən xəbəri olan yox idi. Musa buna tab gətirə bilmədi. Belə qərara gəldi ki, yaylaqda olduğunu Nabata yazıb bildirsin.

Mən gəlib görəndə Taxta yaylağın,
Yada düşdü keçən çağlar, ay Nabat.

Nə gözəlmiş Dəlidağın baharı,
Göz oxşayır yaşıl dağlar, ay  Nabat.

Gəlin qaya zirvəsində çən saxlar,
O dostluğu təmiz saxlar, tən saxlar,
Qoynunda gül saxlar,  göy çəmən saxlar,
Hər nemətdən nübar saxlar, ay Nabat.

Musa deyər: yarsız qəlbim qaraldı,
Yay günündə dağlarımı qar aldı.
Xəyalımda göy otlar da saraldı,
Şahidimdir buz bulaqlar, ay Nabat.

Nabat məktubu alanda həm sevindi, həm də qəmləndi. Sevindi ki, doğrudan da  Musa Şəfiqəni  ürəkdən sevir, onun eşqi ilə dağlara çıxıb, kədərləndi ki, yenə də Musada dözüm-səbr görmədi. Öz-özünə fikirləşdi:

-Ya zalım oğlu küsüb birdəfəlik Qarabağa qayıdacaq, ya da elçisiz-filansız  bu sevgini aləmə car çəkəcək. İstədi ki, bütün mətləbini Musaya açıq yazsın, lakin ehtiyat etdi. Qərara gəldi ki, eyhamsız-filansız gəl bunun cavabını dağlara, yaylaqlara söylə.

Aldım məktubunu könlüm şad oldu,
Yada saldın o çağları, ay Musa.
Unutmaram o dağları ölüncə,
Şərbət sulu bulaqları, ay Musa.

Göy çəmənlər saralmasın, solmasın.
O dağları vaxtsız duman almasın,
O yaylaqlar qoy, mehmansız qalmasın,
Gəlim gəzim yaylaqları, ay Musa.

Dağlar məndən inciməsin, küsməsin,
Dağlar bizdən ülfətini üzməsin,
Nabat deyər: acı yellər əsməsin,
Haqq saxlasın o dağları, ay Musa.

O tərəfdən də Nabat özünü yetirdi Şəfiqəgilə, dedi:

-Ay qız, xəbərin varmı? Bəs Musa Taxta yaylağındadır, buyur bax, şeiri ordan yazıb, gecə-gündüz köç yolu gözləyir, amandı, ata-ananı tələsdir.

Şəfiqə gülə-gülə dedi:

-Nabat xanım, sən Allah, bu kəmhövsələni hardan tapmısan?

Nabat dedi:

-Ay qız, tanrına təpik atma, Musa qızıl oğlandır.

Şəfiqə gəlib anasına dedi:

-Qohum-qonşu Taxta yaylağına köçüb, biz nə vaxtı gözləyirik?

Şəfiqənin anası gülə-gülə dedi:

-Ay bala, səni yaylağa hər il zülmlə aparmışıq. Bu il gün hardan doğub. Çiçəyin çırtlayıb, xəbərimiz yoxdur.

-Ay ana, o nə sözdür, çiçəyin çırtlayıb nədir?

Bu sözü dedi, amma Şəfiqənin yanaqları allandı.

Arvad dinməz-söyləməz yır-yığış elədi. Elə bu vaxt Şəfiqənin atası da gəldi:

-Arvad, bu nədir, hara hazırlaşırsan?

-Belə, Taxta yaylağına.

Bir gün sonra Şəfiqəgilin köçü Taxta yaylağına yola düşdü.

Nabat məktubda şeirlə yanaşı, onu da bildirdi ki, Şəfiqəgilin köçü yoldadır, gəlir. Məktub Musaya köçdən qabaq çatdı. Musanın, Şəfiqənin səbri buna tab gətirməsə də, Kəlbəcərin acı bağırsaq kimi uzanan yolları qurtarmaq bilmirdi.

Musa bilirdi ki, Şəfiqə yaylağa gələn kimi "Ceyran bulağı"na gələcək. Elə dədə-babadan bulaq başı sevgililərin görüş yeri olub.

Bir neçə gündən sonra Musa göy daşın üstündə oturub alaçıqlara tərəf baxırdı. Baxdı ki, bir dəstə qız gülüşə-gülüşə bulağa gəlir.Musanın qəlbi atlandı. Dedi:

-Sən öləsən, Şəfiqə də bu qızların arasındadır. Musa yanılmamışdı.

Şəfiqə ilə Musa görüşdü. Hal-əhval tutdular. Musa Aşıq Nabatı soruşdu. Şəfiqə də ona Nabatın salamını yetirdi.

Şəfiqə bildirdi ki, ata-anam bu yaylaqda qalmaq istəmirlər. Deyirlər ki, burdan "Sarıyer" yaylağına köçək. Musanın qəlbi təlatümə gəldi. Şəfiqə və onun rəfiqələri bulaqdan su doldurana qədər ürək sözünü bir vərəqə köçürüb Şəfiqəyə verdi.

Mən səni az gözləmədim.
Durdum, ceyran keçən yerdə.

Göy sulara düşər əksi,
Ceyran sudan içən yerdə.

Amandı, gəl, qaçma, ceyran.
Sən bu yurddan köçmə, ceyran,
Sənindir bu çeşmə, ceyran,
Gözəllik don biçən yerdə.

Yada saldın Əsli xanı,
Kərəm hanı, Lələ hanı,
Musa qurban eylər canı,
Gözü sizi seçən yerdə.

Musa səbirsizliklə səhərin açılmasını gözlədi. O, bu gün də "Ceyran bulağı"nın həndəvərinə tez gəlmişdi. Musa baxdı budur ey, Şəfiqə bir dəstə qızla bulaq başındadır. Ürəyi çırpındı. Qəlbi ilhama gəldi:

Yenə gəlib yaz ayları.
Hər yanda güllər açılıb.
Bülbül ötür gül üstündə,
Şirincə dillər açılıb.

Hanı yox əldə xınası,
Xoş gəlib göllər sonası,
Yel atıb düşüb cunası,
Cığalar, tellər açılıb.

Bir dünya var bulaq üstə,
Gözəllər dəstəbə-dəstə,
Musa yar dərdindən xəstə,
Bulağa yollar açılıb.

Şəfiqə özü də Musaya bildirdi ki, Aşıq Nabata sifariş göndərmişəm. O, bu günlərdə Taxta yaylağında olacaqdır. Musa bu xəbəri eşidəndə çox məmnun oldu və Şəfiqəyə öz razılığını bildirdi.

Musa hər gün Taxta yaylağının yolları üstdə çıxıb səbirsizliklə, Aşıq Nabatın yolunu gözləyirdi.

Bir neçə gündən sonra Nabat Taxta yaylağına gəlib çıxdı. Musayla, Şəfiqəgillə görüşdü.

Nabatın gəldiyi axşam yaylaqda geniş məclis təşkil olundu. Məsləhət etdilər ki, Aşıq Nabatla Musa qabaq-qabağa oxusunlar. Meydana birinci saz əlində Musa çıxdı və Nabata həsr etdiyi bir gəraylısını oxudu.

Soruşdum növrəs çağını.
Ağ üzünə qar dedilər.
Laləli gül yanağın,
Olubdu bahar dedilər.

Musa dönməz doğru izdən,
Telli sazdan, o dürr sözdən,
Bəsti, Pəri nənəmizdən,
Qalıb yadigar dedilər.

Bundan sonra meydana Aşıq Nabat çıxdı. Məclisin gözü ona dikilmişdi. Nabat ilk dəfə "Var" qoşmasını oxudu.

Xoşbəxtlik günümü, yasa döndərdi,
Bu qanlı dövrandan şikayətim var.
Aşıq Bəsti, Pəri, Həmayıl kimi,
Gör neçə dastanım, hekayətim var.

Nabat məsləhət gördü ki, Musa, Kəlbəcərdə qohumun çox olsa da, Yevlağa da xəbər ver qohum-əqraban gəlib Taxta yaylağında toyunu etsinlər. Belə də oldu. Musa ilə Şəfiqənin toyu Taxta yaylağında oldu. Toyu Aşıq Nabat elədi.

Nabatın yaradıcılığı qeyd etdiyimiz şeirlərdən və "Aşıq Nabat və Musa" dastanından ibarət deyildir. Onun təbiət şeirləri, xüsusi bir tədqiqata möhtacdır. Onun Kəlbəcərin "Sarıyer" yaylağına həsr etdiyi beş bəndlik qoşmasının bircə bəndinə diqqət yetirək.

Bir yanı Kəlbəcər, bir yanı Laçın,
Dikpilləkən, Keyti darayar saçın,
Qırmızıdağ yerə qoyarmı tacın,
Yayın ortasında qar Sarıyerdə.

Siz şeirdəki bədiiyyata, toponomik adlara diqqət yetirin. Aşıq Nabat öz torpağına, dağlarına vurğunluğunu necə gözəl təsvir və tərənnüm edir. Nabat özü də Vətənin vurğunu, aşiqi olduğunu duyur, dərk edir. Yeri düş-dükcə dilə gətirir. O, bu fikri belə mənalandırır:

Haraylaram obaları, elləri,
Səhər yeli darayanda telləri.
Cəm edərəm şeir deyən dilləri,
Şirin söhbət, şirin söz aşığıyam.

Bir, iki yazı ilə Nabatı öyrənmək olmaz. Onun həyat və yaradıcılığı, çap olunmuş "Aşıq Nabat və Musa" dastanı dərindən öyrənilməlidir.

Nabat 1973-cü il oktyabrın 3-də Yevlax şəhərində 59 yaşında vəfat etmişdir. Onu öz vəsiyyətinə görə Naxçıvanın Siyaqut kənd qəbirstanlığında dəfn etmişlər. Nabat ona görə Siyaqutu seçmişdir ki, ana nəsli oradadır, həm də Siyaqut (yəni üç yaqut), Sara, onun sevgilisi Nuru, onun yanından axan Arpa çayı üç yaqutun mənasını daşıyan Siyaqutdur. İndi Aşıq Nabatı axtaranlar Siyaqut məzarıstanında onu ziyarət edirlər. Aşıq Nabatın xalası, xalası qızları və oğlanları Siyaqutda yaşayırlar.

Nabat 1943-cü ildə Bərdə şəhərinə Məmməd adlı bir nəfərə ərə gedir. Ondan 1944-cü il avqustun 28-də qızı Kəmalə dünyaya gəlir.

Burada Səməd Vurğunun Nabata hər zaman yardımçı olduğunu xüsusi qeyd etmək lazımdır.Səməd Vurğun Nabatın sənəntkarlığına, yüksək ifaçılığına böyük əhəmiyyət verirdi.O,Nabatı yaxından tanıdığı üçün Respublika Xalq Yaradıcılıq evinin direktoru Məbud İsmayılzadə demişdir ki, Aşıq Nabat Yevlaxda yaşayır.Onu Yevlax Mədəniyyət Evində işə düzəltmək, bədii rəhbər seçmək lazımdır. Onun səs diapazonu,

Həqiqət Rzayevanın səs diapazonuna yaxındır, bəlkə də oxşardır. Qoy o, dastanlardan parça hazırlayıb, səhnədə tamaşaya qoysun. Səməd Vurğunun ölümündən sonra (Səməd Vurğun bunu görmədi), Yevlax mədəniyyət evinin səhnəsində Aşıq Nabatın "Ərəbzəngi" rolunda, "Aşıq Kərəm" rolunda (kişi paltarında) oynadığını, Yevlax şəhər sakinləri ilə bərabər tamaşanı mən də görmüşəm. Yəqin ki mən, o tamaşaların afişalarını xalq yaradıcılıq evlərinin arxivlərindən tapacam. Aşıq Nabatın Ərəbzəngi qiyafəsində afişadakı şəkilini kitabımın səhifələrinə gətirəcəyəm. Aşıq Nabat başqa qadın sənətkarlardan fərqli olaraq öz müasiri olan Rahilə Həsənova kimi iki qaynaqdan: muğamdan və aşıq sənətindən bəhrələnmişdir.

Nabatın sağlığında öz söhbətləri və tarixi sənədlər əsasında bir məqalə, ölümündən sonra isə Nabat haqqında ikinci məqaləni yazıb çap etdirmişəm.[2]



***Sədnik Paşa Pirsultanlı,***
***filologiya elmləri doktoru,***
***professor***

[2] Aşıq Nabat haqqında birinci məqalə: Sədnik Paşayev, Aşıq Nabat "Azərbaycan qadını" jurnalı №7,1968-ci il, ikinci məqalə: Sədnik Paşayev, Aşıq Nabatın mahnıları "Azərbaycan qadını jurnalı",5 may 1984-cü il

# Aşıq Nabatın həyatından səhifələr

*Azərbaycan aşıqlarının III qurultayı qarşısında:*

**1960-cı ildə Azərbaycanın görkəmli sənətkarlarından bir neçəsi haqqında qurultayqabağı buklet hazıranmışdır. Həmin tanınmış sənətkarlar arasında Aşıq Nabatın bukleti də çap olunmuşdur.Biz həmin o tarixi yadigarı, “Aşıq Nabat” kitabına daxil edirik.**




АШЫГ НАБАТ

Ашыг Набат (Набат Паша гызы Чавадова) 1914-чү илдә Норашен рајонунун Балчы кәндиндә јохсул кәндли аиләсиндә анадан олмушдур. Һәлә кичик јашларында ата-анасыны итирмиш Набат 1934-чү илдә Бәрдә рајонуна көчмүш, бурада јашајан Којчәли ашыг Мусанын јанында үч ил шакирд олуб, ашыглыг сәнәтини ондан өјрәнмишдир.

Кәнч јашларындан көзәл сәсә вә фитри исте'дада малик олан Набат, саз чалмағы тез заманда мәнимсәјә билмиш, аз кечмәдән устад бир гадын ашыг кими танынмаға башламышдыр.

Гадын ашыглар сырасында ашыг Набаты фәргләндирән әсас чәһәт онун малаһәтли сәси вә көзәл ифачылыг габилијјәти олмасыдыр.

Ашыг Набат ики јүз гатардан артыг классик вә мүасир ашыгларын, ел шаирләринин ше'рләрини, бир нечә халг дастаныны көзәл билир вә бүтүн дәскаһы илә ифа едир.

О, бүтүн бунларла јанашы мүасир һәјатымызы тәрәннүм едән бир сыра ше'рләрин дә мүәллифидир.

Ашыг Набат ичтимаи јығынчагларда, халг бајрамларында өз чыхышлары илә фәргләндији үчүн дәфәләрлә фәхри фәрманларла мүкафатланмышдыр.

ФГ 11325. Бирләшмиш нәшријјат мәтбәәси. Сифариш № 2003. Тираж 1500

# Q O Ş M A L A R



**Aşıq Nabat. Moskva. 1940**

## *GƏLMİŞƏM*

Bilirsənmi, ay Ələyəz dağları,
Gəncliyimi səndə qoyub gəlmişəm.
Əllərim xınalı, gözlərim yaşlı,
İlk eşqimi səndə qoyub gəlmişəm.

Gecənin yarısı gəldi qaçaqlar,
Güllənin səsindən titrədi dağlar.
O zamandan Nabat ağlar, dağ ağlar,
Yar məzarın, səndə qoyub gəlmişəm.

Parçıdan gəldim Dərələyəzə,
Çiçəkli dağlardan gül üzə-üzə.
Qəza gəldi həsrət qaldım gündüzə,
Hər nə varsa, səndə qoyub gəlmişəm.

## *MƏN SİZDƏN XƏBƏRSİZ*

İki gözüm, "Oğlan qala", "Qız qala",
Mən sizdən xəbərsiz, sizdən ayrıldım.
Ay Əyricə dağım, a doğma Parçım,
Mən sizdən xəbərsiz, sizdən ayrıldım.

Üç gözəlin timsalıdır Siyaqut,
Arpa çayı, biri Sara, birin tap?
Nuruyla bağlıdır qanlı hekayət,
Mən sizdən xəbərsiz, sizdən ayrıldım.

Nabat, yazda gəldim düşdüm qışa mən,
Qürbət eldə döndüm qərib quşa mən.
Qoymadılar gəzəm yarla qoşa mən,
Mən sizdən xəbərsiz, sizdən ayrıldım.

## *ARZULARDAN DANIŞAQ*

Gəlin, seyrə çıxaq Kür qırağına,
Mənim o yerlərə ziyarətim var.
O Vaqif dolanıb gəzən torpağa,
Əzəldən bağlıyam, məhəbbətim var.

Mənim çox sözüm var Vətənə bağlı,
Elin aşığıyam aranlı, dağlı,
Özüm şən həyatlı bağçalı, bağlı
Vətən torpağına məhəbbətim var.

Nabat, köklə sazı, zilə çək sazı,
Başla ağ günlərdən söhbəti, sözü.
Dağlartək gül açır ömrümün yazı,
Mənim xoş əməlim, xoş niyyətim var.

## *XƏYALDAN DANIŞAQ*

Əziz şair, sən qələmlə, mən sazla,
Bu şad gündən, xoş bahardan danışaq!
Min gül açıb Azərbaycan torpağı,
Tükənməyən arzulardan danışaq.

Gözəllikdə qənirsizdi bu diyar:
Sərvəti var, neməti var, varı var.
Yurdumuzda əbədidi xoş bahar,
Aradakı düz ilqardan danışaq.

Gəz dağları, Muğana gəl, Milə gəl!
Telli sazım, bəmdə durma, zilə gəl.
Nabat deyər: könül, sən də dilə gəl,
Bu xoş gündə dostdan, yardan danışaq.

## *MUĞANDA QALDI*

Vurğun getdi, bir də geri qayıtmaz,
Sözləri yadigar cahanda qaldı.
Çöllərində turac, bir də qırqovul,
Alagöz ceyranlar Muğanda qaldı.

Bu ellər doymadı onun səsindən,
Pətək, bal süzülür hər kəlməsindən,
Şəmşirin sazının ah-naləsindən,
Dəlidağın başı dumanda qaldı.

Nabat, Vurğundaydı dünyanın gözü,
O yana, bu yana gəl çəkmə bizi,
Xəzərə bərabər ləl-mərcan sözü,
Dənizlərdən böyük, ümmanda qaldı.

## *BƏNÖVŞƏSİ*

Diri dağlarının gülü, çiçəyi,
Gəlib Kür üstünə mor bənövşəsi.
Deyirlər: siftəsin Qurbani dərib,
Əmrahın bağında var bənövşəsi.

Aman, aman, ay Ələyəz dağları,
Sən çəkmisən bu sinəmə dağları.
Harda qoyub gəldim göy yaylaqları?
Gəzir xəyalımda nur bənövşəsi.

Nabat, qəm-möhnətdə ciyərim oydum,
Bənövşəmi nə qoxladım, nə doydum.
Bir yaylığa büküb, qoynuma qoydum,
Solmaz bir  gül oldu, yar bənövşəsi.

## *GÜLÜSTANA GƏL*

Murovun döşündən Qazandurmaza,
O yerlərdən enib, Gülüstana gəl.
Uğurla keçəsən İncə çayını,
O Küsmüş körpüdən Gülüstana gəl.

Keç Ballıqayadan dolan, bal gətir,
Xoş xəyalla dolan, xoş əhval gətir.
Kəkotun yolmaşla, qəflotu gətir,
Dağ güllərin yığıb Gülüstana gəl.

Gəzəndə unutma Aşıq Nabatı,
Dildə əzbər olsun qoşma, bayatı.
Çox da ucuz bilmə, sən bu həyatı,
Seyranlara çıxıb, Gülüstana gəl.

### *NƏ DƏRDİM*

Haki Şahdağının seyrinə vardım,
Əlvan güllərini dərdim, nə dərdim.
Səfalı Göyyurdu gəzdim, dolandım,
Cənnəti də gördüm, daha nə dərdim.

O Çobandağına boylandım, baxdım,
Qanlının güllərin buxağa taxdım.
Quba qazlar kimi Şəmkirdə axdım,
Sevin, telli sazım, daha nə dərdim.

Nabat, aləm bilir el aşığıdır,
O, toylar, məclislər yaraşığıdır.
Alma yanaqları nur işığıdır,
Yanar şöyçırağam, daha nə dərdim.

### *YARAŞIR*

Mənim gözəlliyim tanrı  payıdır,
Atlas tapılmasa, bez də yaraşır.
Tarzəni tez çağır, ay müğənni qız,
Mənə sədəfsiz saz da yaraşır.

Məclislərdə muğam-muğam deyirsən,
Məni görüb döşünə də döyürsən.
Xandan dərs aldığım hələ bilmirsən,
Sənətkara qış da, yaz da yaraşır.

Nabat, zilə qalxar onda çaşarsan,
İnanmıram bir də əsib, coşarsan.
Bizim aşıqlartək söz də qoşarsan,
Yaxşı gözələ də söz də yaraşır.

## *KÖNÜL*

Gahdan seyrə çıxıb dağlar başına,
Şərbət sularından içirsən, könül.
Gahdan da cumursan qəm dəryasına,
Bu şirin dünyamdan keçirsən, könül.

Gah baxanda aləm laləzar olur,
Gahdan da dağ-dərə xoş rüzgar olur.
Gahdan ağzın dadı zəhrimar olur,
Ömrümün zəmisin biçirsən, könül.

Gahdan bu Nabatı ala çəkirsən,
Gah qabağa, gah da dala çəkirsən.
Gah gülürsən, gah da nala çəkirsən.
Özün öz işində naçarsan, könül.

## *SİRABIN*

Hər çeşmənin öz adı, öz dadı var,
Dərdlərə dərmandı suyu Sirabın.
Yaxını-uzağı gəzsən tapılmaz,
Tapılmaz heç yerdə suyu Sirabın.

Fərhad düsəriylə qayalar çapar,
Şəfa qaynağını bu yerdə tapar.
Sərin sirab suyun Muğana apar,
Axsın könüllərə suyu Sirabın.

Nabat, şəfa verən sular mənimdi,
Bura ana yurdum, öz vətənimdi.
Uca dağlar mənim göy çəmənimdi,
Çox böyükdü haqqı, sayı Sirabın.

## *TALISTAN DAĞLARI*

Bilirsənmi, ay Talıstan dağları,
Səndə əmanətim, yadigarım var.
Yaxşı saxla Cavanşirin qalasın,
Sənə dağlar boyda etibarım var.

Vurğun gəlib Talıstanı dolaşdı,
Dərin dəryalartək qaynadı, coşdu.
Dağlarımın gözəlliyinə söz qoşdu,
Əzəldən səninlə xoş ilqarım var.

Bu yerlərə, Nabat çoxdan tanışdı,
Sulutdakı məclis yadıma düşdü,
Dünənki gün,bu gün üçün keçmişdi,
Dağlarda küləyim,bir rüzgarım var.

### *KÜRƏK ÇAY*

Yağış yağıb, suyu necə gur düşüb,
Bu nə aləm, cah-cəlaldı, Kürək çay.
Çay üstünə yeddi rəngdən nur düşüb,
Bu nə aləm, cah-cəlaldı, Kürək çay.

Suyun Xan Kəpəzdən, Ağsudan gəlir,
Orta qoruq çəmənində əylənir.
Odur, suyun tər bənövşə iylənir,
Bu nə aləm, cah-cəlaldı, Kürək çay.

A çay, sən həyatsan, bağsan-bağatsan,
Sevinərsən, Kür çayına tez çatsan.
Gəl Nabatı şəlalənlə oyat sən,
Bu nə aləm, cah-cəlaldı, Kürək çay.

### *QIZIM*

Bizim bağçamızda bir gül açıbdı,
Onu əllərinlə üzsənə, qızım.
Bir müjdə versənə bizim ellərə,
Parçıya bir məktub yazsana, qızım.

Ananın nəyi var Parçıda qaldı,
Bulaqda səhəngi, parçı da qaldı.
Sözü ürəyimdə, carçıda qaldı,
Parçıya bir məktub yazsana, qızım.

Nabat deyər: mənim bircə qızımsan,
Gözümün işığı, dan ulduzumsan.
Çiçəkli baharım, güllü yazımsan,
Parçıya bir məktub yazsana, qızım.

## *AĞBULAQ*

İçdim saf suyunu, feyziyab oldum,
Suyun baldır, abı-kövsər, Ağbulaq.
Olsa-olsa, bəlkə sənə tay gələ,
Gəncəçay üstündə Sinsar, Ağbulaq.

Hər baxanda Murov sənlə öyünür,
Ballıqaya qəşş eləyir, söyünür.[1]
Mənim də sevincdən qəlbim döyünür,
Dağ döşündə ləli-gövhər, Ağbulaq.

Nabat, bir ocaqdı Amanı bulaq,
Dağıdar başından dumanı bulaq.
Dörd yanı göy otluq, səməni bulaq,
Tərif eyləməsəm, küsər, Ağbulaq.

## *DİLQƏM AĞLADI*

Əhməd öldü, qan içində gətdilər,
Güvəndikli deyib, Dilqəm ağladı.
Yasəmən saç yoldu, şivən qopardı,
Güvəndikli deyib, Dilqəm ağladı.

Yasəmən pusquda dayandı, durdu,
Dal-dala düşmənin beşini vurdu.
Çeşməlidə bu qız çiçəkdi, nurdu,
Güvəndikli deyib, Dilqəm ağladı.

Düşmənin batmışdı, qana əlləri,
Haray, yasa gəldi Tovuz elləri.
Eşidəndə ağı deyən dilləri,
Güvəndikli deyib, Dilqəm ağladı.

## *GƏLMİŞƏM*

Nədən bu Göyçəyə düşdü güzarım,
Saz, söz üçün bu diyara gəlmişəm.
Almışam dərsimi Aşıq Musadan,
Saz, söz üçün bu diyara gəlmişəm.

Nəcəf Göyçədə söz xirdarıdır,
Talıb Ələsgərin yadigarıdır.
Nə axtarsan sinəsində varıdır,
Saz, söz üçün bu diyara gəlmişəm.

Nabat, “Göyçə gül” dən ilham alanda,
Aşıq Kazım “Duraxanı” çalanda.
Aşıq Alı yada düşdü o anda,
Saz, söz üçün bu diyara gəlmişəm.

### *DE, DANIŞ*

Təzəcə gəlmisən Dərələyəzdən,
Aşıq Mehdi, yaylaqlardan de, danış.
Dağlarda lalədən, düzdə nərgizdən,
Bənövşəli yaylaqlardan de, danış.

Dolandınmı “Qanlıgöl” ün başına,
Baş əydinmi torpağına, daşına.
Heç çıxdınmı, uca dağlar başına,
Diş göynədən  bulaqlardan de, danış.

Nabat, arzu-kamım  o yerdə qaldı,
İçənmədim camım o yerdə qaldı,
Tez söndü ağ şamım o yerdə qaldı,
Xəstə könlə, o dağlardan de, danış

### *BU  YOLLAR  MƏNİ*

Səhər-səhər yenə gözüm yol çəkir,
Hayana çağırır  bu yollar məni?!
Göz açdım, günü gördüm, qamaşdım,
Hayana çağırır bu yollar məni?!

Yolun yaraşığı eniş-yoxuşdur,
Yol boyu çiçəklər naxış-naxışdır.
Sordum qayalardan, o nə baxışdır,
Hayana çağırır bu yollar məni?!

Çəmən mənim, çiçək mənim, çöl mənim,
Dünya mənim, dəniz mənim, göl mənim,
Nabat deyər: şirin ləhcə, dil mənim,
Hayana çağırır bu yollar məni?!

## *QORXMAMIŞAM MƏN*

Aşıqlar diyarı, bizim Tovuzda,
Əsədlə, Mirzəylə oxumuşam mən.
Səhnəyə çıxmışam Ərəbzəngitək,
Meydanda qamaşıb, qorxmamışam mən.

Aşıqlar içində el aşığıyam,
Muğam məclisinin yaraşığıyam.
Bu sənətin üzüyünün qaşıyam,
Meydanda qamaşıb, qorxmamışam mən.

Birisi "Koroğlu cəngisi" çaldı,
Heyf ki, arzusu gözündə qaldı.
Nabatın zil səsi meydanı aldı,
Meydanda qamaşıb, qorxmamışam mən.

## *UNUTMA*

Aşıq Nüsrət, sözlərimə qulaq as,
Ələsgərin dediklərin unutma.
Üzündə nur olsun, dəhanında dür,
Ələsgərin dediklərin unutma.

Mərifət sahibin başa çəkərlər,
Adın yaxşıyla qoşa çəkərlər.
Əgər ki, bəd olsan, haşa çəkərlər,
Ələsgərin dediklərin unutma.

Hər məclisdə gəlin də var, qız da var,
Cavan, qoca, bəlkə, yaşı yüz də var.
Nabat deyər: dərə, təpə, düz də var,
Ələsgərin dediklərin unutma.

## *İSKƏNDƏR*

Sinəsində neçə dastanlar yatır,
Aşıqlıqda bir dünyadı İskəndər.
Koroğluya misal aslanlar yatır,
Dəryalarda bir adadır İskəndər.

Qaraman dağların gəzdi, dolaşdı,
Ağzı ağ köpüklü çaylardan keçdi.
"Yaralı Mahmudu" elə danışdı,
Elə bildim bir röyadı İskəndər.

Nabat sənətinə vurğundu sənin,
Elləroğludur, yerin, məskənin.
Qənirsiz gözəldir sənin Vətənin,
Südün, mayan Ağbabadır, İskəndər.

### *BEYSAVAD*

Sənin xəmrin həqiqətdən yoğrulub,
Həqiqətin gövhər-kanı, Beysavad.
Bu elin, obanın ağsaqqalısan,
Həqiqətin kövhər-kanı, Beysavad.

Varlığın hikmətdir başdan-ayağa,
Namərdlərin canı sənə sadağa.
Qardaşsan Murovtək uca bir dağa,
Həqiqətin kövhər-kanı, Beysavad.

Nabat deyər: üz-gözündən  nur yağır,
Danışığın sakit, duruşun fağır.
Hər vaxt yaradanı köməyə çağır,
Həqiqətin kövhər-kanı, Beysavad.

### *AĞLATDI  MƏNİ*

Mən  aşıq Şəmşirə qonaq getmişdim,
Vurğundan danışdı, ağlatdı məni,
İstədim doyunca bir qulaq asım,
Vurğundan danışdı, ağlatdı məni.

Ceyran bulağından içdi durnalar,
Dağlardan Bağdada köçdü durnalar.
Mənim gül bağçama düşdü durnalar,
Vurğundan danışdı, ağlatdı məni.

Yada düşdü Sarıyerin yaylağı,
Gözlərimdən axdı Ceyran bulağı.
Nabat, Dəlidağın hanı qonağı?
Vurğundan danışdı, ağlatdı məni.

### *CEYRANIN BALASI*

Qolların qurusun, ovçu Şahmurad,
Ceyranın balası yadıma düşdü.
Zalım oğlu birdən qana boyadın,
Onun ah-naləsi, yadıma düşdü.

Ceyran balasının gəlib yanına,
Bələdin balasın, sən alqanına,
Necə qıydın, o ceyranın canına?
Ceyranın balası yadıma düşdü.

Ağ dağlardan Kür üstünə enəndə,
Günortadan gün geriyə dönəndə,
Nabat deyər: qoşa bülbül ötəndə,
Ceyranın balası yadıma düşdü.

## *DİLQƏM AĞLADAR*

Göz yaşı sellənər Kürə qarışar,
Elləri ağlatsa, Dilqəm ağladar.
Cavan, qoca “Kərəmi”yə oynayır,
Elləri ağlatsa, Dilqəm ağladar.

Uzaq deyil, Kür qələmi yaxındır,
Bir ah çəkdi, ürəyimə toxundu.
Telli xanım gəldi, keçdi bax, indi,
Elləri ağlatsa, Dilqəm ağladar.

Nabat, gəl biganə olma, eşqə sən,
Eşq nədir, bilməyəydin keşkə sən.
Cırdaxandan Çeşməliyə keç, gəl sən,
Elləri ağlatsa, Dilqəm ağladar.

## *ALMIŞAM*

Mən sənətə elə, belə gəlmədim,
Dərsimi Seyiddən, Xandan almışam.
Öyrəndim muğamın guşələrin mən,
Qiymətimi, imtahandan almışam.

Muğamı öyrənib, saza keçmişəm,
İki yoldan, mən birini seçmişəm.
Neçə yerdə imtahana düşmüşəm,
Mən meydanda, belə ad-san almışam.

Bayramlarda, adım başda çəkilib,
Duman, çiskin göz önündən çəkilib.
Nabat deyər: ağ saraylar tikilib,
Aşıqlar içində, sultan olmuşam.

## *Görmüşəm*

Yanında ülvəsi, ana kəkliyin,
Şeyran-şeyran baxdığını görmüşəm.
Əli qana batmış, sona kəkliyin,
Daşa xına yaxdığını görmüşəm.

Düşəndə kəkliyin turacla bəhsi,
O yalı-yamacı bürüyər səsi.
Kəkliyin, ülvəsin, çolpasın, dəsin,
Asimana çıxdığını görmüşəm.

Nabat, gözəlliyə çoxdan heyrandı,
Bilmədim caynağı xınadı, qandı?!
Məni görüb, sona kəklik boylandı,
Könlüm evin, yıxdığını görmüşəm.

## *ƏSRİK ÇAYI*

Gileyli olsam da, yenə görüşər,
Çeşməlidən gələn, ay Əsrik çayı.
Dilqəmi, Tellini yaman ağlatdın,
Niyə eyləmədin toy, Əsrik çayı.

Nakam qoydun, Əhməd ilə Yəməni,
Al qana qərq etdin, çölü, çəməni.
Üstümüzə çox güldürdün  düşməni,
Yaxşılıq binasın qoy, Əsrik çayı.

Çeşməlinin qonşusudu, Qandallar,
Suçun olsa, qollarını qandallar.
Hamını dostluğa çağır, ay ellər,
Nabat deyər: olsun şay, ay Əsrik çayı.

## *NƏ GÜNAHI  VAR*

Aşıq qardaş, sən Arazı qınama,
Həsrətin, hicranın nə günahı var?
Savalanın gözlərindən yaş axır,
Həsrətin, hicranın nə günahı var?

Günahkar insandı, bir də dövrandı,
Səni qəmli görüb ürəyim yandı.
Rüzgar ağlayır, dünya pərişandı,
Həsrətin, hicranın nə günahı var?

Nabat əzəldən qəmə qardaşdı,
Baxsana, yaylığın ucları yaşdı.
Sən elə bilmə ki, bağrım bir daşdı,
Həsrətin, hicranın nə günahı var?

## *KÜR ÜSTÜNƏ GƏL*

Yaşılbaş sonasız yaman darıxdım,
Vaqif, Kür üstünə indi gələydin.
Necə cilvələnir türfə gözəllər,
Vaqif, Kür üstünə indi gələydin.

Sona qızlar nə qəşəngdi, göyçəkdi,
Hər birisi yaz ətirli çiçəkdi.
Kürün sahilinə, cəm gələcəkdi,
Vaqif, Kür üstünə indi gələydin.

Nabat qarşıladı, sizi sazınan,
Həm xoş ixtilatla, şəkər sözünən.
Sağda, solda dəstə-dəstə qızınan,
Vaqif, Kür üstünə indi gələydin.

## 1956-58-ci illərdə Aşıq Nabata şəyirdlik etmiş Aşıq Sayad Qaraxanlı haqqında

Aşıq Sayad 1936-cı ildə Tovuz rayonun Xatınlı kəndində dünyaya göz açmışdır. Uşaqlıqdan saza, sözə meyl göstərən gənc Sayad həddbuluğa çatandan sonra saz götürüb aşıqlığa başlamışdır. Saz çalmağı həmkəndliləri qocaman aşıqlardan öyrənmişdir.

Azərbaycan radiosunda məşhur qadın aşığı Nabatın konsertlərinə qulaq asandan sonra onunla görüşməyi qərara almışdır. Elə ilk andan Sayadın zil səsi, zəngulələri, səhnə mədəniyyəti, şirin ləhcəsi Aşıq Nabatın xoşuna gəlmiş, Sayadı şagirdliyə qəbul etmiş və onu özüylə bərabər konsertlərə, toy məclislərinə aparmışdır. Mən, "Yeni Daşkəsən" qəzetinin redaktoru idim. Məni yaxından tanıyan Aşıq Nabat bilirdi ki, Tovuzlu qızı Sayad dörd ildir ki, mənə şagirdlik edir. O, təzanəni saza vuranda, əlləri şirmayi sədəflər üstündə gəzəndə, coşa gəlib ona uyğun avazla oxuyanda insanın az qala ciyərini çəkib çıxarır. Mən deyərdim ki, qadın aışqları arasında, lap kişi aşıqları içərisində "Orta Cəlili" havasını heç kim onun kimi ifa edə bilməz. Şümşad barmaqlar,

səsli-sədalı avaz Sayadı hamıdan fərqləndirir. Nabatla Sayadın 1958-ci ilin oktyabr ayında Daşkəsən Şəhər Mədəniyyət Sarayında konsertləri oldu. Nabatla Sayadın konsertinə bütün şəhər sakinləri, mədənçilər gəlmişdi. Salon ağzına qədər dolmuşdu. Çöldən pəncərənin qabağı, eləcə də, həyət insanlarla dolu idi. Aşıq Nabatın, Aşıq Sayadın cəh-cəh vuran səsləri bu gün də qulağımdadır.

Heyif, heyif, bir də heyif... Sayad kimi əvəzolunmaz qadın aşığımız 1961-ci ildə maşın qəzasına düşdü. O, 25 yaşında dünyasını dəyişdi. Təkcə bir qızı və sazı yadigar qaldı. Aşıq Sayadın şəkli və sazı Tovuz şəhərindəki Bozalqanlı aşıq muzeyində saxlanılır. Aşıq Nabat "Sayad" adlı bir qoşması ilə ona əbədi heykəl qoyub getmişdir. Biz, Nabatın Sayada yazdığı üç bəndlik qoşmasını burada təqdim edirik.

## *Sayadın*

Elə nalə çəkdi, bağrımı dəldi,
Bayatısı, şikəstəsi  Sayadın.
Cəh-cəh vuran bülbülləri susdurdu,
Zidə səsi, zənguləsi Sayadın.

Səhnəyə çıxanda kəklik tək səkər,
Dəhanından ləli-cəvahir tökər,
Fəsillər dalınca fəsillər keçər,
Getməz xəyalımdan səsi Sayadın.

Coşa gəlib, bir “Cəlili” çalanda,
Saza, sözə gəl qiymət ver, bax onda,
Nabat deyər tayı yoxdu cahanda,
Dünya boyd var həvəsi Sayadın.



**Aşıq Nabat və şəyirdi Aşıq Sayad Qaraxanlı**
**Kütləvi el şənliyində**

# GƏRAYLILAR

## *YOLUN DAĞLAR*

Arı çiçəklərdən alıb,
Dərdə dərman balın, dağlar.
Qüdrətdən gözəl çəkilib,
Üzündəki xalın, dağlar.

Göy daşların xınalıdı,
Qayaların cunalıdı.
Ağ göllərin sonalıdı,
Nə xoşdu əhvalın, dağlar.

Dərim gülün yarpaq-yarpaq,
Yada düşdü Qızıltorpaq.
Bu Nabatı, çağır qonaq,
Yasamaldı yolun, dağlar.

## *GÖZƏL*

***(Xalq düzgülərinə bənzər)***

Bilmirəm nəyə bənzədim,
Qəşəngsən, qəşəngsən, gözəl.
Oxşadıram, seçəmmirəm,
Sən hansı çiçəksən, gözəl.

Yanaqların dağ laləsi,
Qıvrım saçlar qərənfildir.

Ceyran müşkün ondan alıb,
Gözlərin axan bulaq,
Dörd bir yanı dağ nanəsi,
Daşları boyun bağı,
Hər birin bir qızdan alıb.
Bulaqlar öz zümzüməsin,

Mən deyirəm, sazdan alıb.
İnciyər şehdərənlər,
Deyər ki, Moy çiçəyim,
Ətrini bizdən alıb.
Boynu bükük bənövşələr,
Ətirini yazdan alıb.

## *HAYVALI YOLU*

Cüyür, əlik, dağ keçisi,
Su üstünə gələr köçü.
Mən bu yolda oldum yolçu,
Bu yol Hayvalı yoludu.

Qaşqaçayın axar, durmaz,
Dörd fəsil, suyu qurumaz.
Ur dağından kəklik uçmaz,
Bu yol Hayvalı yoludu.

Lalədi, güldü düzlərin,
Xumar gözlü nərgizlərin.

Al qumaş geymiş qızların,
Bu yol Hayvalı yoludu.

Nabat qonaq oldu, burda,
Canım qurban, belə yurda.
Bənövşələr çimir nurda,
Bu yol Hayvalı yoludu.

## *YAZ AY LALA*

Demədimi, Mayıl sənə,
Deyim: dərdim yaz, ay Lala.
Könül səni hər an istər,
Sən bitirsən yaz, ay Lala.

Yanaqların qan qırmızı,
Baxsan qamaşdırar gözü.
Ay fatalı ellər qızı,
Eyləyirsən naz, ay Lala.

Nabat, elə bildim yazdır,
Baxdım ona ağlım azdı.
Elə bildim bizim düzdü,
Bağrım oldu köz, ay Lala.

## *QUCAĞINDA*

Nağaradı, Çobandaşdı,
Xoşbulağın qucağında.
Yağış yağdı, göl yarandı,
Qırxbulağın ayağında.

Ovçuya bax, dağdan aşdı,
Arxasında yolu çaşdı.
Fərə kəkliklər qoşaşdı,
Xanbulağın oylağında.

Dağlar gözəl, tamaşadı,
Gözəllik qoşa-qoşadı.
Nabat bir ömür yaşadı,
Xoşbulağın qucağında.

## *BAXIN DAĞLARA*

Daşqın, yaman bir ah çəkdin,
Ahın dağlara, dağlara.
Yadındamı Alp dağları,
Ahın dağlara, dağlara.

Bu dünyanın hər işi var,
Enişi var, yoxuşu var,
Hərənin bir baxışı var,
Ahın dağlara, dağlara.

Nabat möhkəm, yenə mətin,
Yolçusudu həqiqətin.
Yaxşı saxla, sədaqətin,
Ahın dağlara, dağlara.

### *GÖRDÜM*

Rüzgarım  tərsinə əsdi,
Mən nə qış, nə bahar gördüm.
Baş açmadım dörd fəsildən,
Hamsın, qeyri təhər gördüm.

Göz yaşım qana boyandı,
Səsimə quşlar oyandı.
Çaylar durdu, dayandı,
Çəkdiyim ah-zarı, gördüm.

Nabat, çox cavan çağında,
Gəzmədi bağça, bağında,
O Ələyəz  dağlarında,
Qan içində yarı gördüm.

## *LƏPƏLƏNSİN GÖYÇƏ GÖLÜM*

Həzin-həzin çalam gərək,
Ləpələnsin Göyçə gölüm.
Gərək təşnə ürəklərə,
Səpələnsin "Göyçə gülü"m.

Şair Osman sözün yazsın,
Sözü ipə-sapa düzsün.
Saz, söz ürəkləri gəzsin,
Gülsün üzə "Göyçə gülü"m.

Sazın, sözün, sirrin bilib,
Dağın, gölün, yerin bilib.
Nabat sahilinə gəlib,
Ləpələnsin Göyçə gölüm.

## *OLUBDU*

Kəpəz, Murov, Yeddiqardaş,
Qoşqar dağı, hamıdan baş.
Şahdağı geyinib qumaş,
Dağlara sultan olubdur.

Gözəldi nərgiz talası,
Cüyürlər yanda balası.
Qıpqırmızı dağ lalası,
Tamam çəmən qan olubdur.

Vətən, səni görüm var ol,
Nabat deyər: bəxtiyar ol.
Görüb desin, bu el, mahal,
Sözün bir cahan olubdur.

# *B A Y A T I L A R*

"Oğlan qala", "Qız qala",
Ay ürəyi buz qala.
Nabat yada düşəndə,
Bircə məktub yaz, qala.

Nabat deyər: Parçıdı,
Doğduğum kənd Parçıdı.
Məndən əmanət qalan,
Bulaq, səhəng, parçıdı.

Kür üstdə ey, bənövşə,
Təzə don  gey, bənövşə.
Yarpaqları yamyaşıl,
Özü gömgöy, bənövşə.

Əzizim, qırova bax,
Dön qarlı Murova bax.
Yaz idi, inanmadım,
Gün yaxan  Murova, bax.

Əzizinəm, bu dağlar,
Gün vurar, buzlar ağlar.
Yarı vaxtsız ölən kəs,
Dərdini yalqız ağlar.

Əzizinəm, doymaram,
Səni  gözdən qoymaram.
Dərya, dəniz bir yana,
Arpaçaydan  doymaram.

Zirvənə çıxım, dağlar,
Elimə baxım, dağlar.
Nə ola boy verəsən,
Suyunda axım, dağlar.

Arpaçay sular başı,
Qızıldı torpaq-daşı,
Qurumaz bir çay olub,
Hey axır  gözüm yaşı.

Əzizinəm, Saram var,
Siyaqutum, Saram var.
Nurum "Oğlan qala"da,
"Qız qala"da Saram var.

Əzizim, yaxşı dağlar,
Yaxşıdan, yaxşı dağlar.
Dərdimi başdan desəm,
Dözməz, Yaxşı da ağlar.

Əzizinəm, qız qala,
Müqəddəsdi , Qızqala.
Nabat, insafdan deyil,
Oğlan ölə, qız qala.

Əzizinəm, meşəsi,
Qızıltorpaq meşəsi.
Nərgizləri göz vurur,
Qımışır bənövşəsi.

Əzizinəm, o xaldan,
O Ağdaşdır, o Xaldan.
Tanrım mənə veribdi,
Tapammazsan, o xaldan.

Əzizinəm, bəxti kəm,
Taleyi kəm, bəxti kəm.
Nabat sənə neylədi,
Eyləmisən bəxti kəm.

Əzizinəm, dərdə gəl,
Dərman ol, hər dərdə gəl.
Nüşabənin yurduna,
Gün çıxanda, nurda gəl.

Əzizim, Nabata qaldı,
Nə var Nabata qaldı.
Aşiqlər öz  yarıynan,
Dərd, qəm Nabata qaldı.

# D E Y İ Ş M Ə L Ə R

## *NABATLA TEYMURUN DEYİŞMƏSİ*

Nabat: Eşit sözlərimi, ay Cavan Teymur,
Necə keçdi, rüzgarı Qəribin.
Yeddi ilin ayrılığı çətindi,
Bir yaradan səbəbkarı Qəribin.

Teymur: Şahsənəm Tiflisdə, Qəribsə Şamda,
O qürbət ellərdə, qərib axşamda.
Dayanmaz, yox olar, əriyər şam da,
Dünya boyda intizarı Qəribin.

Nabat: Hey şehli qalırdı, Qəribin gülü,
Sanki axtarırdı, şeyda bülbülü.
Necə keçdi, onun hər ayı, ili,
Sandıqdaydı yadigarı Qəribin.

Teymur: Qızılgülün kolu, ipək parçalar,
Necə baxım, ürəyimi parçalar.
Təsəllimdi ayı, günü parçalar,
Aradaydı düz ilqarı Qəribin.

Nabat: Nabatın sözləri sənə əyandı,
Qəmlərə qərq oldu, ürəyim yandı.
Şahsənəm bu dərdə, necə dayandı,
Ağladı, gülmədi yarı Qəribin.

Teymur: Dar ayaqda Xızır çatdı, hoyuna,
Mələkmənzər xalat biçdi boyuna.
Gəlib çatdı Şahsənəmin toyuna,
Sona yetdi ahu-zarı Qəribin.

## *NABATLA CƏVAHİRİN DEYİŞMƏSİ*

Nabat: Gecə-gündüz dağlarını öyürsən,
Nuh-çıxandı, Naxçıvandı dağlarım.
Nuhun gəmisini tutub saxladı,
Yerdi, göydü, asimandı dağlarım.

Cəvahir: Gədəbəyə, Qızıltorpaq deyərlər,
Dünya boyda, bir cahandı dağlarım.
Qalakənd, Qızqala, Şəmkir boyunca,
Gəmi üzüb, xoşnişandı dağlarım.

Nabat: Əsabi-kəf yeddi kimsə nişanı,
Xaraba Gilanı öyrən, düz tanı.
O Kəmçi dağıma axtar, tay hanı,
Nə gizlindi, nə pünhandı dağlarım.

Cəvahir: Səcdəgahdır, Haçaqaya ocağı,
Aləm bilir, möcüzədir Şahdağı.
Şahi-şonqar, tərlanların oylağı,
Düşmən üçün şiraslandı dağlarım.

Nabat: Əzbərində şair, aşıq, Miskinlər,
Nabat, bir gör, harda qalıb pis günlər.
Ağ aşığı, Qız Reyhanı el bilər,[1]
Yüz əfsanə, yüz dastandı dağlarım.

Cəvahir: Bir görəydin Qanlı dağı, Mahını,
Qocadağda dağıdaydın ahını.
Cəvahir düz bilir, qibləgahını,
Dörd fəsildə gülüstandı, dağlarım.

---

[1] Şəmkirli Aşıq Hüseynə şeirlə məktub yazan Reyhan,naxçıvanlı Ağ Aşığın qızıdır.XIX əsrin əvvəlində Ağ aşığın birincisi Göyçənin Kərkibaş kəndində (Allahverdi), ikincisi isə Naxçıvanda məşhur Ağ Aşıq olmuş, qızı Reyhanı da bir sənətkar kimi yetişdirmişdir.Hətta tamam bədəni,qaşı,gözü ağ olan, Ağ Aşıqdan biri də 50-60-cı illərdə yenə də Naxçıvanda olmuşdur.Şirmayi sümüklü belə insanlar dövlətin qeydiyyatındadır.Naxçıvanda olan Ağ Aşığı mən gözlərimlə görmüşəm və mən onunla Naxçıvanlı Ağ Aşıq və onun qızı Reyhan haqqında söhbət edib, məlumatlar almışam.Müasirimiz olan Ağ Aşıq,özünü tarixi Ağ Aşığın qızı və Reyhanın nəslinə mənsub olduğunu mənə Bakıda söyləmişdi.

# “AŞIQ NABAT VƏ MUSA” DASTANI



ЈЕВЛАХ РАЈОН ХАЛГ МААРИФ ШӨ'БӘСИ

Мүәллимләримизин јарадычылығы

«АШЫГ НАБАТ ВӘ МУСА»
ДАСТАНЫ

ЈЕВЛАХ 1993.



**Dastanın qəhrəmanları**



Aşıq Nabat
Cavadova

Musa
Allahverdiyev

Sizə kimdən deyim, kimdən danışım Naxçıvanın Parçı kəndindən olan Paşa kişidən. Paşa kişinin külfəti Əyricə yaylaqlarında idi. O vaxt qızı Nabatın on dörd-on beş yaşı olardı. Bu qızın uca boyu, qızılgülə bənzər ağlı-qırmızılı yanağı, hələ üstəlik məlahətli səsi çoxlarının diqqətini özünə çəkirdi. Nabatı öz kəndlərində də sevənlər çox idi. Paşanın xoşu gələn oğlanı Nabat da sevirdi. Atalar havayı deməyib, sən saydığını say, gör fələk nə sayır. Nabatı polis dəstəsinin başçısı cavan bir oğlan götürüb qaçdı. Dərələyəz ellərinə apardı. Bu oğlan o qədər yaraşıqlı, xoşxasiyyət idi ki, Nabatın öz taleyindən şikayət etməyə haqqı yox idi.

Bu xoşbəxtliyin də ömrü az oldu. Kənd polis rəisini qaçaqlar öldürdülər. Hər yerdən əli üzülən, tənha qalan Nabat ata evinə qayıtmağı özünə ar bildi. Gənc qız Qarabağa üz tutdu. Bir müddət Seyid Şuşinski, Zülfü Adıgözəlov və tarzən Qurban Pirimovla birlikdə xanəndəlik etməyə başladı. Nabat muğamın xallarını, güllərini gözəl bilsə də, ürəyi sazın telləri ilə bir çırpınırdı. Atalar düz deyiblər ki, "niyyətin hara, mənzilin də ora".

Nabat məşhur Aşıq Ələsgərin qardaşı oğlu Aşıq Musayla tanış oldu və ona şəyird olmağa razılıq verdi. Telli saz sinəsində Gəncəni, Göyçəni, Qazağı gəzdi, neçə-neçə toyda-mağarda çaldı-çağırdı. Az vaxt ərzində mahir bir qadın aşığı kimi adı dillər əzbəri oldu. Nabat aylarla Borçalıda, Gəncədə, Qazaxda

qalsa da, daimi yaşayış yeri olaraq Yevlax şəhərini seçdi.

Bir bərdəli ilə ailə qurdu. Bir qızı oldu. Lakin Nabatın onunla da ulduzu barışmadı. Nabat belə qərara gəldi ki, mən bundan sonra bütün eşqimi, sevgimi telli saza verəcəm.

Bir gün Nabat Yevlağın Qaraməmmədli kəndində olan Musa Həbib oğlu ilə tanış oldu. Musa müəllim Nabatdan gənc idi. O utana-utana Nabata yaxınlaşıb dedi:

-İstəyirəm, siz mənim qoşma və gəraylılarımdan məclisdə oxuyasınız.

Nabat dedi:

-Gözəl olar, evimə gəl, şeirini də gətir.

Bir gün Musa Yevlağa Nabatgilə gəldi, yavaş-yavaş darvaza qapısını döydü. Nabat qapını açdı. Musa gözünə inanmadı. Nabat çarpayını həyətdəki gilas ağacının altına qoyub yatmışdı.

Musa nə vaxt gəlirdisə, Nabatın gilas ağacının altında yatdığının şahidi olurdu. Hər dəfə Musanın heyrətə gəldiyini Nabat da duyurdu.

Nabat dedi:

-Musa, deyəsən düşünürsən ki, niyə Nabat bayırda yatır, qızı isə aynəbənddə. Mən burada heç kəsin yolunu gözləmirəm. Bunun başqa sirri var. Sən sənət adamısan, şeirin, sazın nə olduğunu duyursan. Odur ki, bu sirri sənə deyəcəyəm. Bu sirr, sazın-sözün sehri ilə bağlıdır. Hamı sazı, eyni cür çalmır. Hər kəsin öz duyumu, öz duyğusu var. Mənim sazımdakı sehrli

səslər hər səhər-axşam bu gilas ağacında ötən bir cüt bülbülün səsidir. Heç vaxt bülbülləri aşkarda oxuyan görməmişəm. Sən bülbüllərdəki abıra-həyaya, incəliyə, zərifliyə bax. Onlar oxuyan zaman yarpaqlar arasında oxuyurlar. Onların mahnıları təkrar olunmazdır.

Gah qəmli, gah da sevincli xoş mahnılar oxuyurlar. Mən sazımı onların səsi üstə kökləyirəm. Onlar qəmli oxuyanda elə bil kimsə yarını itirib. "Baş Sarıtel" üstə oxuya-oxuya onu axtarır, sevinclə cəh-cəh vurub oxuyanda elə bil bülbüllər "Orta Sarıtel" üstə çalıb oxuyurlar. Vaxtilə Novruz da, Xan Tahir də bülbülləri dinləyəndən sonra "Bülbül" rədifli şeirlərini düzüb-qoşublar.

Musanı heyrət bürüdü, özünü ələ ala bilmədi.

-Nabat, gəl, biz də "Bülbül" rədifli şeirlər yazaq.

Araya sükut çökdü.

Nabat dilləndi:

-Musa, şeirində, sözündə yolun altına, üstünə düşmə. Birincisi bizim yaşımız çox fərqlidir, ikincisi ağzını süd yandıran qatıqdan da qorxar, qoy bizim sevgimiz bir-biri ilə qovuşa bilməyən aşiqlərin, məşuqların sevgisi olsun. Qoy sevgimiz şeir-sənət, saz-söz sevgisi olsun.

Hər iki sənətkarın "Bülbül" rədifli gəraylıları bax, beləcə yarandı.

**Aşıq Nabat:**

Xan Tahirdən yadigarsan,
Sən özün də xan, ay bülbül.
Gecə-gündüz qəm yoldaşım,
Çox dərdlisən, can, ay bülbül.

**Musa:**

Oxu, gülsün yar könülü,
Gəl eyləmə ar, ay bülbül.
Yoxsa sənin də mənimtək,
Pünhan dərdin var, ay bülbül.

"A Musa, axı demişdim, yolun üstünə, altına çıxmaq olmasın. Sözdə sərhəd olsa yaxşı deyilmi?"

**Aşıq Nabat:**

Yada düşdü, yaxın, uzaq,
Sən fələyin işinə bax,
Ürəyimdən keçdi bir ox,
Bağrım oldu qan, ay bülbül.

Musa dedi:

-A Nabat, olmuya sözüm sənə toxundu. A zalım qızı, dastanlar oxumusan, neçə-neçə nakam aşiqin taleyinə, söz-söhbətinə bələdsən. Hansı aşiq-məşuq

olub ki, dərdini bülbülə, gülə, dağa-daşa deməmiş olsun.

**Musa:**

Aşiq olan, bir yol seçər,
Eşqin bulağından içər.
Ağlı olan qalmaz naçar,
Eyləməz ah-zar, ay bülbül.

Nabat dözə bilməyib sazı köynəkdən çıxartdı. Qəmli bir hava üstündə sazını köklədi, sözün möhürbəndini belə tamamladı:

Nabat deyər: göyən bülbül,
Qəmli nəğmə deyən bülbül.
Sən bülbülsən, mən də bir gül,
Eşq oduna yan, ay bülbül.

Nabat dərdini sözlə də dedi:

-Musa, mən könlümü gecə-gündüz başım üstündə oxuyan bülbülə vermişəm.

Bu söz də Musanı yerindən oynatdı, elə bil canına qeybdən bir qızdırma gəldi, öz-özünə havalandı:

Musa deyər: ağ eylədin,
Təpə dərdim, dağ eylədin,
Bir gilası bağ eylədin,
Gül yanında xar, ay bülbül.

Musa ilə Nabat bir-birindən çox könülsüz ayrıldılar. Musa bir daha Nabatın görüşünə qayıtmadı. Nabat öz-özünü danladı:

-Ay diliqafil, deyəsən, yox yerdən Musanın könlünə dəydin.

Fikirləşdi ki, gəl, Musaya bir məktub yaz.

-Onu "Bülbül" rədifli şeirlə küsdürmüşəm, "Bülbül" şeiri ilə könlünü alacam. Nabat Musaya belə bir şeir yazıb göndərdi:

Gecə-gündüz səsin gəlir,
Bir azca da oxu, bülbül.
Dərdin, qəmin yaman çoxdu,
Qaçıb gözdən yuxu, bülbül,
Bir azca da oxu, bülbül.

Soruşmaki haralıyam,
Şərurdanam-oralıyam,
Mən də yardan yaralıyam,
Bir dərdliyik axı, bülbül,
Bir azca da oxu, bülbül.

O ellərin mərd qızıyam,
Parçı  kəndin ulduzuyam,
Neynim ki, qara yazıyam,
Qəmim çoxdu axı, bülbül,
Bir azca da oxu, bülbül.

Sevirəm ilin yazını,
Çəkəmmədim yar nazını,

Bir də çalım, qəm sazını,
Yanır qəlbim axı, bülbül,
Bir azca da oxu, bülbül.

Sən düşübsən güldən kənar,
Nabat kimi eldən kənar,
Oxumasan qəlbim yanar,
Şan-şan bağrım axı, bülbül.
Bir azca da oxu, bülbül.

Şeiri zərfə qoyub Musaya göndərdi. Musa məktubu alanda bir tərəfdən sevindi ki, Nabatdan xəbər tutdu, qəmləndi ona görə ki, şeirin məzmunu çox kədərli idi. Musa da eyni rədifli şeir yazıb Nabata göndərdi:

Nə yaxşı ki, sən də varsan,
Qəlb ovlayan sənətkarsan,
Eşqin gəlsə, oxuyarsan,
Sən aşiqsən, axı, bülbül,
Bir azca da oxu, bülbül.

Fələk dərd-qəm verib bizə,
Məcnun edib, salıb düzə,
Çox vədəsiz gəldik gözə,
Niyə belə, axı bülbül?
Bir azca da oxu, bülbül.

Oxuyursan vaxtlı-vaxtsız,
Od tutursan haqlı-haqsız,
Sən günahsız, mən günahsız,
Üzdün məni axı, bülbül,
Bir azca da oxu, bülbül.

Alışırsan öz-özünə,
Yanırsan eşqin közünə,
Dünya görünmür gözünə,
"Gül" dərdin var, axı bülbül,
Bir azca da oxu, bülbül.

Musa, halım yaman oldu,
Günlərin ah-aman oldu,
Tüstüm qalxdı, duman oldu,
Nədir çarəm axı, bülbül,
Bir azca da oxu, bülbül.

Əslində bülbül bir vasitə kimi seçilsə də Nabatın öz dərdi-səri, Musanın da başqa nisgili vardı. Bu məktublar da Musanın ayağını açmadı. O, təkrar Nabatın görüşünə, onun evinə getməyə həya eylədi. Musa qərara gəldi ki,

-Canım çıxsa da, qoy dözüm, onunla kənarda görüşməliyəm. Sonra Musa dedi:

-Ə, nə bülbül deyib durmuşuq, bütün bu günahların səbəbkarı dünya deyilmi?

Musanın düşüncələri, qəmli duyğuları dünya ilə bağlı "Düşürsən" qoşması yarandı.

İnsan yaxşı şeydi, ay qoca dünya,
Bir gündə gör neçə həngə düşürsən.
Gah gəlin olursan, gah qoca qarı,
Utanmırsan, rəngdən-rəngə düşürsən.

Gahdan dost olursan  gahdan da yağı,
Gahdan da olursan  bir cənnət bağı,
Gahdan talanırsan  bir leş sayağı,
Gah tülküyə, gah pələngə dönürsən.

Dünya qınamayın ağrısa səni,
Bir gün yaxalayar axırsa, səni,
Bu biçarə Musa çağırsa səni,
Yəqin ki, döyüşə, cəngə çıxarsan.

Musa belə qərara gəldi ki, Nabatın evinə gedəsi deyiləm. Baharın bu laləzar çağında onu Kür üstünə çağıracağam. Oydu ki, Musa "Kür üstünə gəl" qoşmasını yazdı, bir zərfə qoyub Nabata göndərdi.

Bülbüllü bağçana gələn deyiləm,
Gözləri piyalə, Kür üstünə gəl.
Çəkir həsrətini bənövşə, nərgiz,
Yanaqları lalə, Kür üstünə gəl.

Yar yarıynan gəzər, yar olar burda.
Loğmansız sağalar, yaralar burda.

Hicranın ürəyim, yaralar burda.
Düşmə min xəyala, Kür üstünə gəl.

Sən kimdən küssən də Musadan küsmə,
Bir yerdə qərar tut küləktək əsmə,
Qəlbimin bağını, bəndini kəsmə,
Görüşə, vüsala, Kür üstünə gəl.

Aşıq Nabat saz-söz vurğunu olan qızlardan Rəfiqəni, Səidəni, Rənanı, Şəfiqəni götürüb Kür üstünə gəldi. Bahar Kürün sahillərinə bir naxış vurmuşdur, göl dibindən boylanan bənövşələr, xumar gözlü zambaqlar, bir tərəfdən də gümüş rəngli ağ qovaqlar. Bunların hamısından çox ağac başında yuva bağlayan, qoşa dayanıb ətrafı seyr edən qoşa leylək diqqəti cəlb edir. Nabat dedi:

-Qızlar, bu yerlərə Ərəş mahalı deyərlər. Bu torpağın Abdulla kimi şairi, Cahan kimi sevib-sevilən istedadlı qızı olub. Onlar bu yerlərdə bir-birlərinə çox nəğmələr qoşublar.

Əlini sazına qoyub dedi:

-Qızlar, bu saz çox nakam aşiqlərin dərdinə şərik olub. Sazı sızıldadan da, sevdirən də odur.

Buraya Musa adlı istedadlı bir gənc gələcək. Ona xüsusi diqqət yetirin, birincisi o, müəllimdir, lakin saz-söz vurğunudur. İkincisi, mən ondan böyüyəm, həm də subay deyiləm. Mən onun səmiyyətinə, şeirinə, sənətinə bələdəm. Siz də saz-söz

vurğunu, istedad vurğunusuz. Musa hansınızın xoşuna gəlsə, onunla deyişsin.

Musa Nabatla, qızlarla görüşür. Lakin bu dəfə Musa da, Nabat kimi Kürün üstünə sazla gəlmişdi. Hər ikisi sazları bir-birinin üstünə köklədilər. Musa dedi:

-Bu dəfə qabağa mən düşəcəm.

Nabat dedi:

-Olsun.

**Musa:**

Kür üstünün boşdur yanı,
Hanı Abdullahım, hanı?
Nə özü var, nə Cahanı,
Ağlar Kürüm, ağlamazmı?

Nabat dedi:

-Ayə Musa, Kür üstündə, bu gün Abdullah yoxdur, Cahan yoxdur, sən varsan, su sonası kimi qızlarımız var. Buna münasib aldı görək Nabat nə dedi:

Kür üstünün sonası var,
Əllərinin xınası var,
Ağ yaylığı, cunası var,
Kürümün gülən günüdür.

**Musa:**

Durnam burdan keçdi qəmli,
Buludların gözü nəmli,

Bir gün görmədim həmdəmli,
Ağlar Kürüm, ağlamazmı?

**Nabat:**

Sağ-solumda üç şahzadə,
Heç birin verməməm yada,
Sev birini yet murada,
Kürümün gülən günüdür.

Musa Nabatın eyhamını başa düşüb, aldı görək nə dedi:

İşarə eylədin qandım,
Musayam, yolumdan döndüm.
Sonalar gölünə endim,
Ağlar Kürüm, ağlamazmı?

Musa sazın kökünü dəyişib "A dünya" qoşmasını oxudu:

A dünya, əlindən dad çəkə-çəkə,
Leyli-Məcnun kimi yar gəldi-getdi.
Fərhad atdı, külüng dəydi başına,
Ağlatdı Şirini, zar gəldi-getdi.

Sənan çox ağladı, Qəribdən qabaq,
Xumar nakam getdi, üzündə duvaq,
Şahsənəm sevindi, toyum olacaq,
Onun da günləri, zar gəldi-getdi.

Musa deyər, dərdim dərdə qoşaram,
Kərəm ollam, qarlı dağlar aşaram,
Gör necə insanam, necə bəşərəm,
Başımda sevdalar, var gəldi-getdi.

Nabat dedi:

-Ayə, Musanı belə sözlərlə yavaşıtmaq olmayacaq, gəl bunu təcnisə çək, həm təcnis könül qıran deyil, həm də elə təcnis qabaqdakının əl qolunu bağlayan qıfılbənd kimi bir şeydir. Nabat sazın qulağını burub, təcnis üstə gəldi. Musa elə sazın kökündən bildi ki, Nabat hansısa bədahətdən söylədiyi təcnisini oxuyacaq:

Ölüm yeydi, namərdə baş əyməkdən,
Yaman günün yüz olsa da qəhrağa,
Minnətinən əbru-ətlas geyməkdən,
Bəsdi özgə ağı, bezi-qəhrağa.

Bülbül qalsa daş qəfəsdə, qayada,
Bilmək olmaz qalmaya da, qala da,
Bülbül dözməz, qızılgülsüz qayada,
Gah boşalar, dolar gözü qəhrağa.

Aşıq Nabat, qulluq eylə kamala,
Çoxları həsrətdi ağla, kamala.
Hər kəs istər, bu dünyadan kam ala,
Bu hesaba bəs kim dözdü, qəhrağa.

Nabat gördü ki, Musa sazı təcnis üstə kökləyir. Təəccüb eylədi, nə olsun ki, onun qoşma söyləməyə təbi var, axı təcnis demək çətin şeydi, o hər adamın xörəyi deyil. Musa sazı sinəsinə basıb görək nə dedi:

Mərəz mənəm, məlul qoyma, şəfa qıl,
Bağban sənsən, Təbriz narı sinədə.
Etmə muzaq gəl insafa, şəfa qıl,
Getməz, qalar ahu-zarı sinədə.

Zanbur qonar, hər çiçəkdən bal alı,
Dahan dəysə, ləblərindən bal alı.
Qulun mənəm, yazıq başı bəlalı,
Məhəbbətin eşq açarı sinədə.

Təbib sənsən yar bağrımı hara yar,
Doğra bağrım, sən yarırsan hara, yar?
Musa getsin, de, loğmana hara, yar?
Yoxsa getsin dərd-azarı sinədə?

Nabat fikirləşdi ki, ayə, bəlkə, Musa bu təcnisi çoxdan yazıb əzbərləyib. Odur ki, dedi:

-A Musa o təcnisdən varsa, birini də de.

Bu lap Musanın ürəyincə oldu. Aldı Musa görək ikinci təcnisi necə deyir:

Qəsri-eyvan, zər-zibadı, xalıdı,
Xub yaraşır xətdi-xala ay, xalıdı,

Qaş təcalla, xallar həbəş xalıdı,
Aya bənzər gül camalın, a yaman.

Murqu sənsən, göydən çəkən səmada,
Mələk yoxdu, sən tək, ərşdə, səmada,
Həsrətindən səməndərəm səmada,
Əmən ölməz ləblərindən ay, əmən.

Musa dərsin, tamam oldu, əlif-bey,
Var hüsnündə cəm olunub əlif-bey,
Sinən bəyaz, üstü ürfat, əlif-bey,
Dönə-dönə qoy dərs alım, ayə, mən.

Nabat da, qızlar da Musanın bu qabiliyyətinə "əhsən" dedilər. Nabat dedi:

-Musa, indi növbə mənimdir:

Bax bu dağlar, bu dərələr,
Nələr görüb, ağrın alım.
Neçə-neçə ər oğullar,
Məclis qurub, ağrın alım.

Qoç Koroğlu aşıb yalı,
Zirvələrdən salıb yolu,
O xan Eyvaz, İsabalı,
Köhlən sürüb, ağrın alım.

Halaypozan, Topdağından,
Dəmirçioğlu açıb meydan,

Tutub paşa, xan, bəzirgan,
Karvan vurub, ağrın alım.

Nabat deyər: mehribanım,
Yaxşı dosta qurban canım,
Bu yerlərdə Nigar xanım,
Nərgiz dərib, ağrın alım.

Nabat bildirdi ki, Musa Şəfiqəgilin ailəsilə yaz, yay aylarında Kəlbəcərə, Ceyran bulağına, Sarıyer yaylaqlarına çıxırlar. Sonra dedi:

-Ay Musa, bir gəraylı da oxuyum, gedək, qızları da evdə gözləyirlər. Aldı görək Aşıq Nabat nə dedi:

Aşıq Musa, götür sazı,
Bu cah-cəlaldan de, danış,
Gözəllərdən tərif eylə,
Qaşı hilaldan de, danış.

Ceyran bulaq bir tamaşa,
Hər yan bürünür qumaşa,
Gözəlləri qoşa-qoşa,
Bu xoş vüsaldan de, danış.

Bu Nabata ilham verən,
Bahardı şux nəqşə vuran.
Sevincini selləndirən,
Min bir sualdan de, danış.

Dostlar xoş məramla ayrıldılar.

Aradan az keçmişdi. Musa yaylaqlara üz tutdu. Dəlidağın qənşərinə, Taxta yaylağına, bir az “Ceyran bulağı” ndan aralı seyrək-seyrək alaçıqlar görünürdü. Amma hər gün Qarabağdan, aran elindən köç gəlir, yeni alaçıqlar qurulurdu. Musa axşamlar İstisu kurortunda qalır, səhərlər Taxta yaylağına çıxırdı. Kimdən soruşurdusa, Şəfiqəgilin köçündən xəbəri olan yox idi. Musa buna tab gətirə bilmədi. Belə qərara gəldi ki, Nabata yazıb bildirsin ki, o, yaylaqdadır.

Mən gəlib görəndə Taxta yaylağın,
Yada düşdü keçən çağlar, ay Nabat.
Nə gözəlmiş Dəlidağın baharı,
Göz oxşayır yaşıl dağlar, ay Nabat.

Gəlin qaya zirvəsində çən saxlar,
O dostluğu, təmiz saxlar, tən saxlar,
Qoynunda gül saxlar, göy çəmən saxlar,
Hər nemətdən nübar saxlar, ay Nabat.

Musa deyir: yarsız qəlbim qaraldı,
Yay günündə dağlarımı qar aldı.
Xəyalımda göy otlar da saraldı,
Şahidimdir buz bulaqlar, ay Nabat.

Nabat məktubu alanda həm sevindi, həm də qəmləndi. Sevindi ki, doğrudan da Musa Şəfiqəni ürəkdən

sevir, onun eşqi ilə dağlara çıxıb, kədərləndi ki, yenə də Musada dözüm-səbr görmədi. Öz-özünə fikirləşdi:

-Ya zalım oğlu küsüb birdəfəlik Qarabağa qayıdacaq, ya da elçisiz-filansız bu sevgini aləmə car çəkəcək. İstədi ki, bütün mətləbin Musaya açıq yaz-sın, lakin ehtiyat etdi. Qərara gəldi ki, eyhamsız filansız gəl bunun cavabını dağlara, yaylaqlara söylə.

Aldım məktubunu könlüm şad oldu,
Yada saldın o çağları, ay Musa.
Unutmaram o dağları ölüncə,
Şərbət sulu bulaqları, ay Musa.

Göy çəmənlər saralmasın, solmasın.
O dağları vaxtsız duman almasın,
O yaylaqlar qoy, mehmansız qalmasın,
Gəlim, gəzim yaylaqları, ay Musa.

Dağlar məndən incimәsin, küsməsin,
Dağlar bizdən ülfətini üzməsin,
Nabat deyər: acı yellər əsməsin,
Haqq saxlasın o dağları, ay Musa.

Musanın höfsələsi çatmayıb, Nabata ikinci şeir məktubunu göndərdi.

Dərdini çəkməkdən, dərdim oldu min,
Döndü zəhrimara, nanım gəlmədin.

Ruhum da cəsəddən oldu didərgin,
Getdi əldən din-imanım gəlmədin.

Hey çəkilməz gözüm gözlər yolları,
Ömrümün qalasın uçur hasarı,
Nə qədər boylanım dağlara sarı,
Çürüdü cəsəddə canım, gəlmədin.

Musa vədə verdi salmadı, saya,
Həftələr adladı, gün döndü aya,
Saxla pənahında, saxla xudaya,
Ömür-günüm, şövkət-şanım gəlmədi.

O tərəfdən də Nabat özünü yetirdi Şəfiqəgilə, dedi:

-Ay qız, xəbərin varmı, bəs Musa Taxta yaylağındadır, buyur bax, şeiri ordan yazıb, gecə-gündüz köç yolu gözləyir, amandı ata-ananı tələsdir.

Şəfiqə gülə-gülə dedi:

-Nabat xanım, sən Allah, bu kəmhövsələni haradan tapdın?

Nabat dedi:

-Ay qız, tanrına təpik atma, Musa qızıl oğlandır.

Şəfiqə gəlib anasına dedi:

-Qonum-qonşu Taxta yaylağına çoxdan köçüb, biz nə vaxtı gözləyirik?

Şəfiqənin anası gülə-gülə dedi:

-Ay bala, səni yaylağa hər il zülümlə aparmışıq. Bu il gün haradan doğub, çiçəyin çırtlayıb, xəbərimiz yoxdur.

-Ay ana, o nə sözdür çiçəyin çırtlayıb nədir? Bu sözü dedi, amma Şəfiqənin yanaqları allandı.

Arvad dinməz-söyləməz yır-yığış elədi. Elə bu vaxt Şəfiqənin atası da gəldi:

-Arvad, bu nədir, hara hazırlaşırsan?

-Belə Taxta yaylağına.

Bir gün sonra Şəfiqəgilin köçü Taxta yaylağına yola düşdü.

Nabat məktubda şeirlə yanaşı, onu da bildirdi ki, Şəfiqəgilin köçü yoldadır, gəlir. Məktub Musaya köçdən qabaq çatdı. Musanın, Şəfiqənin səbri buna tab gətirməsə də Kəlbəcərin acı bağırsaq kimi uzanan yolları qurtarmaq bilmirdi.

Musa bilirdi ki, Şəfiqə yaylağa gələn kimi “Ceyran bulağı”na gələcək. Elə dədə-babadan bulaq başı sevgililərin görüş yeri olub.

Bir neçə gündən sonra Musa göy daşın üstündə oturub alaçıqlara tərəf baxırdı. Baxdı ki, bir dəstə qız gülüşə-gülüşə bulağa gəlir. Musanın qəlbi atlandı. Dedi:

-Sən öləsən, Şəfiqə də bu qızların arasındadır. Musa yanılmamışdı.

Şəfiqə ilə Musa görüşdü. Hal-əhval tutdular. Musa Aşıq Nabatı soruşdu. Şəfiqə də ona Nabatın salamını yetirdi.

Şəfiqə bildirdi ki, ata-anam bu yaylaqda qalmaq istəmirlər. Deyirlər ki, burdan "Sarıyer" yaylağına köçək. Musanın qəlbi təlatümə gəldi. Şəfiqə və onun rəfiqələri bulaqdan su doldurana qədər ürək sözünü bu vərəqə köçürüb Şəfiqəyə verdi.

Mən səni az gözləmədim.
Durdum, ceyran keçən yerdə.
Göy sulara düşər əksi,
Ceyran sudan içən yerdə.

Amandı, gəl, qaçma, ceyran.
Sən bu yurddan köçmə, ceyran,
Sənindir bu çeşmə, ceyran,
Gözəllik don biçən yerdə.

Yada saldın Əsli xanı,
Kərəm hanı, Lələ hanı,
Musa qurban eylər canı,
Gözü sizi seçən yerdə.

Musa səbirsizliklə səhərin açılmasını gözlədi. O, bu gün də "Ceyran bulağı" nın həndəvərinə tez gəlmişdi. Musa baxdı budur ey, Şəfiqə bir dəstə qızla bulaq başındadır. Ürəyi çırpındı. Qəlbi ilhama gəldi:

Yenə gəlib yaz ayları,
Hər yanda güllər açılıb,

Bülbül ötür gül üstündə,
Şirincə dillər açılıb.

Hanı yox əldə xınası,
Xoş gəlib göllər sonası,
Yel atıb düşüb cunası,
Cığalar, tellər açılıb.

Bir dünya var bulaq üstə.
Gözəllər dəstəbədəstə,
Musa yar dərdindən xəstə,
Bulağa yollar açılıb.

Musa Şəfiqəyə bildirdi ki, gedib Sarıyer yaylağına baş çəkdim, orda bir qoşma da yazdım. Musa Sarıyerdə yazdığı qoşmasını Şəfiqəyə təqdim etdi.

Deyirlər cənnət var, eldə bir misal,
Axtaran kimsənə gör Sarıyerdə.
Karvanlar düzülər yola dalbadal,
Qabaqda bəzənir nər, Sarıyerdə.

Əyriqarnan bəhsə düşüb Ağqaya,
Yorulan köşəyi gözləyər maya,
Gör nə zinət verib, bari-xudaya,
Könül nə istəsə var, Sarıyerdə.

Bir yanı Kəlbəcər, bir yanı Laçın,
Dikpilləkən, Keyti, darayar saçın,

Qırmızı dağ yerə qoyarmı tacın,
Yayın ortasında qar Sarıyerdə.

El gəlib çıxanda bir bax yaylağa,
Gör necə söykənib burda dağ-dağa,
Gözəllər yığılıb Çobanbulağa,
Ər oğlu igidlər var, Sarıyerdə.

Koroğlu cəngini çox sevir ellər,
Burda yallı tutar, başında dəllər,
Aşıq Musa deyər, əllərdə güllər,
Güllərdən ərmağan var, Sarıyerdə.

Şəfiqə özü də Musaya bildirdi ki, Aşıq Nabata sifariş göndərmişəm. O, bu günlərdə Taxta yaylağında olacaqdır. Musa bu xəbəri eşidəndə çox məmnun oldu və Şəfiqəyə öz razılığını bildirdi.

Musa hər gün Taxta yaylağının yolları üstdə çıxıb səbirsizliklə Aşıq Nabatın yolunu gözləyirdi.

Bir neçə gündən sonra Nabat Taxta yaylağına gəlib çıxdı. Musa ilə, Şəfiqəgillə görüşdü.

Nabatın gəldiyi axşam yaylaqda geniş məclis təşkil olundu. Məsləhət etdilər ki, Aşıq Nabatla Musa qabaq-qabağa oxusunlar. Meydana birinci saz əlində Musa çıxdı və Nabata həsr etdiyi bir gəraylısını oxudu.

Soruşdum növrəs çağını.
Ağ üzünə qar dedilər.

Laləli  gül yanağın,
Olubdu bahar dedilər.

Olsan da sərvi-xuraman,
Keçmişlərin keçib, yaman,
Üzün gülməyib, heç zaman,
Tutub səni sar, dedilər.

Musa dönməz doğru izdən,
Telli sazdan, o dürr sözdən,
Bəsti, Pəri nənəmizdən,
Qalıb yadigar dedilər.

Bundan sonra meydana Aşıq Nabat çıxdı. Məclisin gözü ona dikilmişdi. Nabat ilk dəfə “Var” qoşmasını oxudu.

Mənim xoş günümü, yasa döndərdi,
Bu qanlı dövrandan şikayətim var.
Aşıq Bəsti, Pəri, Həmayıl kimi,
Gör neçə dastanım, hekayətim var.

Gəc tale özümü özümdən aldı,
Bəxtimin güzgüsün daşlara çaldı,
Doğma diyarımdan qürbətə saldı,
Mənim bu sinəmdə çox həsrətim var.

Doğmalarım, əzizlərim yad oldu,
Yananım ağladı, yadım şad oldu,
Nabatam, gəncliyim tamam bad oldu,
Talesiz taleyim, kəm qismətim var.

Nabat onu da dedi ki, taleyim kəc olsa da, sənətlə yaşadım. Sazımın gücüylə dərdimi ellərə söyləyə bildim.

Sevdalı könlümün qəmin, sevincin
Bülbülə söylədim, gülə söylədim.
Doğma vətən dərdin, doğma el dərdin,
Gəzdiyim obaya, elə söylədim.

Vuruldum bahara, vuruldum yaza,
Kədərdən, nisgildən bağlandım saza.
Ötən bülbül kimi dəm verdim sözə,
Sirrimi sazımda telə söylədim.

Başımdan aşanda zamanın qəmi,
Qorqud sazın seçdim  könül həmdəmi,
Yetişdi dadıma "Kərəm", "Dilqəmi",
Dərdlərimi bəmə, zilə söylədim.

"Dübeytdə" Dağlar"ı oxudum dağda,
Ürək nisgilimi belə söylədim.
Saz çaldım Bərdədə, ana Yevlaxda,
Dolandım Gəncədə, o Qarabağda.

Nabatam ellərdən aldım ilhamı,
Sazımı, sözümü bəyəndi hamı
Çatdı köməyimə “Cəngi”, “Divani”,
Gətirdim sözümü dilə, söylədim.

Nabat məsləhət gördü ki, Musa Kəlbəcərdə qohumun çoxdu, Yevlağa da xəbər ver, qohum-əqraban gəlib Taxta yaylağında toyunu etsinlər. Belə də oldu. Musa ilə Şəfiqənin toyu Taxta yaylağında oldu. Toyu Aşıq Nabat elədi. Nabat toyu aşağıdakı şux müxəmməslə tamamladı.

Çəkdin dara, eylə çara,
Cəllad qaşı, kaman getmə,
Kiprik çaxdın, cana sıxdın,
Yaralandım aman, getmə,
Döşün yumru, dilin qumru,
Verdin əldən iman getmə,
Çək səfa, olsun şəfa,
Xəstələrə dərman getmə,
Ayaq saxla, dayan, getmə.

Kərəm kanı, coşub qanı,
Xəlq eyləyib göyçək səni.
Gəldim dada, düşdüm oda.
Gördüm həlqə birçək səni.
Kəlağay al, gərdənə sal,
Əcəb tutub ləçək səni.

Seyrana gəl, gəzir əl-əl.
Baxçalarda çiçək səni.
Saralar gül, susar bülbül
Rəhm et, qönçə dəhan, getmə.

Baxır süzgün, qalır üzgün,
Alır şirin canı zalım.
Qurur divan, kəsir sultan,
Asır bəyi, xanı zalım,
Can alır, taxtdan salır,
Şahi-Süleymanı zalım,
Vur bəndə, sal kəməndə,
Bu güllü-cahanı zalım.
Çat qaşın, yaranmışın,
Ver qətlinə fərman getmə.

Bax tüstümə, göydən üstümə,
Yağdırır boranı, bu qız.
Verir dərs, əzbərdən dərs,
Yüz on dörd suranı bu qız.
Sənana, qana-qana,
Yandırır "Quran"ı bu qız.
Yazıq Məcnun, oldu cunün,
Yetirir çaranı bu qız.
Eşqə doldu, Kərəm oldu,
Atəşinə yanan getmə.

Xoş səfa, gəl insafa,
Şirin dostluq etsən belə.

Sev məni, sevim səni,
Bu sevdaya bitsən belə,
Söz tamam, a şölə şam.
Alıb kama yetsən belə,
Nabat naşad, olmaz dilşad.
Əgər qoyub getsən belə,
Başı daşlı, gözü yaşlı
Məni qoyub, canan, getmə.

Musa ilə Şəfiqə 27 ildir ki, xoşbəxt ömür sürürlər. 5 uşaq (3 qız, 2 oğul) böyüdüb boya-başa çatdırıblar.

Hazırda Yevlax rayonunun Qaraməmmədli kəndində yaşayırlar.

# Sədnik Paşa Pirsultanlının (Paşayev Sədnik Xəlil oğlu) qısa tərcümeyi-hal

1. Filologiya elmləri doktoru, professor, şair.
2. 1988-ci ilin dekabr ayının 30-da "Əmək veteranı", 1992-ci ilin may ayının 4-də "Əməkdar Mədəniyyət işçisi", 2007-ci ilin yanvar ayında "Qabaqcıl Təhsil işçisi", Türkiyə Cumhuriyyəti Kültür Bakanlığının "Teşekkür belgesi"-ni almışdır.
3. 20 may 1929-cu il tarixdə Azərbaycan Respublikasının Daşkəsən rayonunun Qazaxyolçular (Pirsultan) kəndində anadan olub.
4. 1946-cı ildə "Daşkəsən" qəzetində "Zəfər bayramı" adlı ilk şeiri çap olunub.
5. Natamam orta təhsilini Qazaxyolçular kəndində, orta təhsilini Dəstəfur internat məktəbində alıb. 1950-ci ildə H.B.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutunun (indiki Gəncə Dövlət

Universitetinin) birinci kursuna qəbul olunub, 1954-cü ildə Azərbaycan dili və ədəbiyyatı fakültəsini bitirib.

**6.** 2004-cü ildən AYB-nin üzvüdür.

**7.** 1955-ci ildən 1970-ci ilə qədər "Yeni Daşkəsən" (Daşkəsən), "Mübariz" (Goranboy) və "Yenilik" (Kəlbəcər) rayon qəzetlərində redaktor, "Kirovabad kommunisti" qəzetinin məsul katibi işləyib. 1970-ci ilin oktyabr ayında H.B.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutuna müsabiqə yolu ilə müəllim qəbul olunub, baş müəllim, dosent vəzifələrində işləyib. Hal-hazırda Gəncə Dövlət Universitetinin professorudur.

**8.** 1993-cü ildə Ankarada keçirilən "İpək yolu uluslararası xalq ədəbiyyatı simpoziumu"nda və Nevşehirdə keçirilən "Hacı Veli Bektaşi" törənində məruzəçi kimi çıxış edib.

1955-ci ilin iyul ayından "Bilik" cəmiyyətinin, 1960-ci ilin iyun ayından Jurnalistlər Birliyinin, 1989-cu ilin aprel ayından Aşıqlar Birliyinin,

1998-ci ilin oktyabr ayından Azərbaycan Vətən Müharibəsi Veteranlar Birliyinin (fəxri), 2003-cü ilin iyun ayından Yeni Azərbaycan Partiyasının, 2004-cü ilin aprel ayından Yazıçılar Birliyinin üzvüdür.

**9.** Almaniya Avropa Türk-İslam Birliyinin dəvəti ilə "Yunis İmrəyə sevgi ili" kutlamalarında məruzəçi kimi çıxış edib, Türkiyədə elmi konfraslarda və simpoziumlarda iştirak edib, İranda yaradıcılıq səfərində olub.

**10.** 2007-ci ildə "Azərbaycan Respublikasının Əməkdar müəllimi", 2009-cu ildə "Tərəqqi" medalı ilə təltif olunub.

**11.** www.sednikpasapirsultanlı.net

**15. Kitablarının siyahısı**

1. Лалə. Ашыг Бəсти. Эəнслик, Бакı, 1969, 55 səh. 10.000 nüsxə
2. Йашайан əфсанəлəр, Эəнслик, Bakı, 1973, 78 səh. 4.000 nüsxə

3. Xəstə Гасым. Эәнслик, Bakı, 1975, səh 64, 2.200 nüsxə
4. Йурдумузун əфсанəлəри. Бакı, 1976, 45 səh. 30.000 nüsxə
5. Низами вə фолклор. Билик, Бакı, 1976, 65 səh. 2.500 nüsxə
6. Йанардаь əфсанəлəри. Эәнслик, Bakı, 1978, 160 səh. 20.000 nüsxə
7. Азəрбайсан халq йарадысылыьынын inkişafı Билик, Бакı, 1981, 40 səh. 1000 nüsxə
8. Низами vә xalq əfsanələri. Эәнслик, Бакı, 1983, 128 səh. 4.000 nüsxə.
9. Байатылар (топлайанлар: В.Вəлийев, С.Пашайев). Йазыçы, Бакı, 1985, 200 səh. 40.000 nüsxə.
10. Azərbaycan əfsanələrinin öyrənilməsi. Билик, Бакı, 1985, 70 səh, 500 nüsxə.
11. Азəрбайсан xalq əфсанəлəри, Йазычы, Бакı, 1985, 285 səh, 50.000 nüsxə.

12. Азәрбайсан mifoloji мәтнләри, Елм, Бакı, 1988, (топлайанлар Сәдник Пашайев, Маqбет Әщмәдов, Ариф Рәщимов, Ариф Acalov), 180 səh, 25.000 nüsxə.

13. Азәрбайсан fолклору вә ашыq йарадысылыьы (дәрс vəsaiti), Азәрбайсан Дөвләт Университетi Нәшрийуаты, Бакı, 1989, 88 səh, 500 nüsxə.

14. Azərbaycan xalq dastanlarının tədrisinə dair (metodik göstəriş), Bakı, 1989, 48 səh, 500 nüsxə.

15. ХЫХ əsr Азәрбайсан ашыq йараdысылыьы (дәрс vəsaiti), Азәрбайсан ДПИ-нин нәшрийуаты, Бакı, 1990, 98 səh, 500 nüsxə.

16. Öz səsim (şeirlər), İdeya nəşriyyatı, Gəncə, 1990, 72 səh, 500 nüsxə.

17. Азәрбайсан xalq сюйләмәләри, Йазыçы, Бакı, 1992, 211 səh, 10.000 nüsxə.

18. Пирсултан булаьы (шеирләр), Елм, Бакı, 1994, 110 səh, 1000 nüsxə.

19. Инсичичәуим (шеирләр), Эәнсә, 1996, 100 səh, 500 nüsxə

20. Караьан Усубун lətifələri, Gəncə, 1997, тəкрар nəşr. 2000, 2001, 37 səh, 1000 nüsxə.

21. Xalqın söz mirvariləri, Азəрнəшр, 1999, 110 səh, 500 nüsxə.

22. Илащи бир сəс (шеирлəр), Эəнсə, 1999, 110 səh, 500 nüsxə.

23. Унну Аьсанын lətifələri, Еколоgiya nəşriyyatı, Эəнсə, 1999, 60 səh, 500 nüsxə.

24. Ağdabanlı şair Qurban, Эəнслик, Бакı, 2000, 177 səh, 500 nüsxə.

25. Дабровол Qасымын lətifələri, «Əsgəroğlu», Gəncə, 2001, 62 səh, 200 nüsxə.

26. Йəщйа бəй Дилгəмə el-oba məhəbbəti, Бакı, Аэащ 2001, 105 səh, 600 nüsxə.

27. Ашыq Бəсти "Bənövşələr" "Əсэəроьлу", Gəncə, 2001, 80 səh, 300 nüsxə

28. Heca vəznli şeir və mənzum atalar sözləri, Эəнсə, Аэащ, 2001, 110 səh, 200 nüsxə.

29. Heca vəznli tapmacaların inkişafı, Agah nəşriyyatı, Gəncə, 2001, 110 səh, 300 nüsxə.

30. Азәрбайсан епосунуп әфсанә qaynaqları, Азәрнәшр, Бакı, 2002, 102 səh, 500 nüsxə.

31. Qaraxanlı Künə Dəmirin lətifələri, Gəncə, «Pirsultan», 2002, 51 səh, 200 nüsxə.

32. Qамышлы шаир Рцстәм, «Laçın qaya, çal yadıma düşəndə», Gəncə, «Pirsultan», 2002, 80 səh, 300 nüsxə

33. Yuxular олмасайды, «Pirsultan», 2002, 60 səh, 150 nüsxə.

34. Озан-Ашыq сәнәтинин nəzəri мәсәләләри, Бакı, Озан, 2002, 208 səh, 250 nüsxə.

35. Озан-Ашыq йарадысылыьына dair арашdıрмалар, Ы силd, Эәнсә, «Pirsultan», 2002, 203 səh, 150 nüsxə.

36. Озан-Ашыq йарадысылыьына dair арашdырмалар, ЫЫ силd, Эәнсә, «Pirsultan», 2002, 230 səh, 100 nüsxə.

37. Бир ичим нәьмә (шеирләр), Эәнсә, «Pirsultan», 2003, 70 səh, 100 nüsxə.

38.Щеса вəзнли байаты və qошма möcüzələri, Gəncə, «Pirsultan», 2003, 80 səh, 100 nüsxə.

39. Эəнсəбасар lətifələri, Эəнсə, «Agah», 2005, 201 səh, 300 nüsxə.

40. Бир чичəк дə Вəтəндir, Эəнсə, 2005, 127 səh, 200 nüsxə.

41. Əsatirlər, əfsanələr, rəvayətlər (S.P.Pirsultanlı və digər müəlliflər), "Şərq-Qərb", 2005, 304 səh, 2500 nüsxə.

42. Мир Сəфəр Баьыров йaddaшларда, «Pirsultan», Gəncə, 2005, 80 səh, 100 nüsxə.

43. Елдəн-обадан eşitdiklərim, Gəncə, «Agah», 2005, 170 səh,  200 nüsxə.

44. Yıldızdağdan əsən külək, Gəncə, 2006, 100 səh, 200 nüsxə.

45. Azərbaycan folkloruna dair tədqiqlər, Gəncə, 2006, 402 səh, 200 nüsxə.

46.Publisistika və folklor, Gəncə, 2007, 330 səh, 200 nüsxə.

47. Azərbaycan əfsanə və rəvayətlərinin ədəbi abidələrimizlə müqayisəli tədqiqi, Elm, 2007, 310 səh, 500 nüsxə.

48. Pirsultan Pinarı (Şeirlər), «Pirsultan», Gəncə, 2007, 666 səh, 100 nüsxə.

49. Azerbaycan efsane ve rivayetlerinin Edebi Yapıtlarımızda Karşılaştırmalı Açıklaması Bakü 2008, Bilim yayınevi, 310 sayfa, 500 adet

50. Saz nəfəsli şeirlərim, «Pirsultan», Gəncə, 2008, 121 səh, 200 nüsxə.

51. Aşıq Şəmşirin poetik aləminə səyahət, "Təknur", Bakı, 2008, 295 səh, 500 nüsxə.

52. Azərbaycan türklərinin xalq əfsanələri, Azərnəşr, Bakı, 2009, 427 səh, 200 nüsxə.

53. "Novruz-Qəndab" və digər məhəbbət dastan-larının müqayisəli tədqiqi, Azərnəşr, Bakı, 2009 112 səh, 200 nüsxə.

54. "Aşıq Tifil Əsəd və Aşıq Ağbulaqlı Aqil", "Pirsultan", Gəncə, 2009 114 səh, 100 nüsxə.

55. "Qızıl beşik və Ana maral", "Pirsultan", Gəncə, 2010, 126 səh, 100 nüsxə.

56. “Lilpar bulağı”, “Pirsultan”, Gəncə, 2010, 120 səh, 100 nüsxə.

57. Altın Beşik ve Anne Geğik. Gence 2010, Pirsultan yayınevi, 130 sayfa, 100 adet

58. Azərbaycan aşıq yaradıcılığına dair araşdırmalar, “Azərnəşr”, Bakı, 2010, 260 səh, 200 nüsxə.

59. Azərbaycan folklorunda gülüş”, Gəncə Dövlət Universiteti nəşriyyatı, 2010, 130 səh. 200 nüsxə

60. “Azərbaycan yazarlar aləmində əfsanə inciləri”. Bakı, 2010, 360 səh. 200 nüsxə

61 “Azərbaycan aşıq poeziyasında və yazılı poeziyada təcnisin inkişaf tarixi”, Bakı. “Azərnəşr”, 2010, 156 səh, 200 nüsxə

62. Azerbaycan Türklerinin Halk Efsaneleri, Bakü, 2010, Azerneşr yayınevi, 427 sayfa, 200 adet

63. “Xəstə Qasımın ədəbi irsinin tədqiqi”, Bakı, “Azərnəşr”, 2011, 250 səh. 200 nüsxə

64. “XXI əsrdə Azərbaycan folklorundan incələmələr”. Gəncə Dövlət Universiteti nəşriyyatı, 2010, 130 səh. 200 nüsxə

65. “Molla Nəsrəddin varislərinin lətifələri”,

Gəncə Dövlət Universiteti nəşriyyatı, 2011,

120 səh. 200 nüsxə

66. Lilpar Çeşmesi (Türk dilinde) Gence 2011,

Pirsultan yayınevi, 157 sayfa, 100 adet

67. “Poeziyamızda Sarı Aşığın bayatı zirvəsi”

Azərnəşr, 2011, 142 səh. 100 nüsxə

68. “Azərbaycan türklərinin xalq rəvayətləri”. Azərnəşr. 2011. 630 səh. 100 nüsxə.

69. “Aşıq Nabat”. Bakı, Azərnəşr. 2012.

## *Sədnik Paşa Pirsultanlıya həsr olunmuş kitablar*

1. Ələsgər Əlioğlu. “Sədnik Paşanın yaradıcılılıq yolu”. “Səda”, Bakı, 1996. 52 səh. 100 nüsxə
2. Elm və sənət adamları Sədnik Paşa Pirsultanlı haqqında. I hissə “Pirsultan”, Gəncə, 2003, 410 səh. 300 nüsxə
3. Seyfəddin Rzasoy. “Azərbaycan folklorşünaslıq tarixi və Sədnik Paşa Pirsultanlı”. “Nurlan”, Bakı, 2008. 212 səh. 500 nüsxə
4. Qasım Qırxqızlı. “Sədnik Paşa Pirsultanlının bədii yaradıcılığı”. “Pirsultan”, Gəncə, 2010, 130 səh, 100 nüsxə
5. Şakir Albalıyev. “Sədnik Paşa Pirsultanlı poeziyasına bir baxış”. “Pirsultan”, Gəncə, 2011, 80 səh, 100 nüsxə
6. Köçəri Cəfərli. “Sədnik Paşa Pirsultanlının təqdimatında: Melodik musiqi çeşməsi və Aşıq Şəmşir”. Bakı, “Azərnəşr”, 2011, 126 səh, 200 nüsxə

7. Elm və sənət adamları Sədnik Paşa Pirsultanlı haqqında. II hissə Gəncə Dövlət Universiteti nəşriyyatı, 2011, 234 səh. 100 nüsxə
8. Abbas Səmədov. „Filologiya Elmləri *doktoru, professor Sədnik Paşa Pirsultanlının Elmi-nəzəri ideyası", Azərnəşr, 2012. 745 səh. 100 nüsxə.*

# M Ü N D Ə R İ C A T

Aşıq Nabatın həyatı, şeirləri və dastan yaradıcılığı.................3-37

## *QOŞMALAR*

Gəlmişəm..........................................................................41
Mən sizdən xəbərsiz...............................................................41
Arzulardan danışaq...............................................................42
Xəyallardan danışaq..............................................................42
Muğanda qaldı.....................................................................43
Bənövşəsi...........................................................................44
Gülüstana gəl.......................................................................44
Nədərdim.............................................................................45
Yaraşır................................................................................45
Könül..................................................................................46
Sirabın................................................................................47
Talıstan dağları.....................................................................47
Kürəkçay.............................................................................48
Qızım..................................................................................48
Ağbulaq ..............................................................................49
Dilqəm ağladı........................................................................50
Gəlmişəm.............................................................................50
De, danış.............................................................................51
Bu yollar məni.......................................................................51
Qorxmamışam mən................................................................52
Unutma................................................................................53

İskəndər.......................................................................53
Beysavad..........................................................................54
Ağlatdı məni..................................................................54
Ceyranın balası...............................................................55
Dilqəm ağladar...............................................................56
Almışam……………………………………….......................56
Görmüşəm……………………………………........57
Əsrik çayı…………………………………….........58
Nə günahı var………………………………........58
Kür üstünə gəl……………………………….........59

Aşıq Sayad Qaraxanlı haqqında....................................60
Sayadın.........................................................................*61*

## *G Ə R A Y L I L A R*

Yolun dağları...........................................................64
Gözəl.................................................................................64
Hayvalı yolu...............................................................65
Yaz, ay Lala....................................................................66
Qucağında...................................................................67
Baxın dağlara.................................................................67
Gördüm.........................................................................68
Ləpələnsin Göyçə gölüm................................................69
Olubdu...........................................................................69

## *BAYATILAR*

Bayatılar...........................................................................72-74

## *DEYİŞMƏLƏR*

Nabatla Teymurun deyişməsi...............................................76
Nabatla Cəvahirin deyişməsi..........................................77

## *DASTAN YARADICILĞI*

"Aşıq Nabat və Musa" dastanı............................79-108
Sədnik Paşa Pirsultanlının (Paşayev Sədnik Xəlil oğlu) qısa tərcümeyi-halı.....................................................109
Sədnik Paşa Pirsultanlının kitablarının siyahısı................111
Sədnik Paşa Pirsultanlıya həsr olunmuş kitablar............119

***Sədnik Paşa Pirsultanlı***
***Filologiya elmləri doktoru, professor***

# *Əldə xına, gözdə yaş*

***Korrektor:*** ***Nəzakət Mamedova***

***Bilgisayar operatoru və dizayner:***

***Novruzova İlhamə Alim qızı***

Yığılmağa verilmişdir: 08.03.2012
Çapa imzalanmışdır: 25.04.2012
Qiyməti müqavilə yolu ilə
Tiraj:100